RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 32 (9199) 12 FEVRAL 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Dar gündə də, xoş gündə də bir yerdəyik

### Ölkəmizin bütün bölgələrində qardaş ölkəyə yardım üçün insanlar səfərbər olub

**Türkiyənin qarşılaşdığı bütün çətin məqamlarda ona hər cür dəstək və yardım göstərən Azərbaycan bu dar gündə də qardaşının yanındadır.**

Dövlətimiz, xalqımız zəlzələdən zərərçəkən türkiyəli bacı-qardaşlarımıza kömək olmaq üçün faciənin baş verdiyi andan etibarən səfərbər olub, ölkəmizin bütün bölgələrində yardım kampaniyalarına başlanılıb. Hər kəs bağrından qopan qardaş payı ilə bu yardım kampaniyalarında canidildən iştirak edir, Türkiyəyə kömək üçün könüllü olur...

**Fevralın 20-dək hər gün Azərbaycandan humanitar yardım təyyarəsi gedəcək**

Prezident İlham Əliyevin tapşırığına əsasən, fevralın 6-da baş verən təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülüb.

Xatırladaq ki, Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar 6-9 fevral tarixləri ərzində Azərbaycandan Türkiyəyə 8 təyyarə və 24 yük avtomobili vasitəsilə humanitar yardım çatdırılıb, həmçinin 855 000 manat maddi yardım edilib.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı və digər şəhərlərdə, eləcə də Naxçıvan Muxtar Respublikasında yerləşən tibb müəssisələri Türkiyədə baş vermiş zəlzələdə zərərçəkmiş şəxslərin müalicəsi üçün hazır vəziyyətə gətirilib.

Fevralın 20-dək hər gün Azərbaycandan Türkiyəyə humanitar yardım təyyarəsi göndəriləcək.

Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində zərərçəkənlərə yardım məqsədilə Azərbaycanda fəaliyyət göstərən QHT-lər "Qardaş köməyi" adlı platforma yaradıblar. Bu platforma vasitəsilə kömək etmək istəyən şəxslər qardaş ölkədə zəlzələdən əziyyət çəkən vətəndaşlara müxtəlif ləvazimatlar göndərirlər.

5

## Mehriban Əliyevanın göstərişi ilə daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb

**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Türkiyənin zəlzələ bölgəsinə növbəti humanitar yardım təyyarəsi yola düşüb.**

Budəfəki humanitar yardıma faciədən zərərçəkmiş şəxslər üçün zəruri olan əlavə avadanlıqlar, o cümlədən qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, həmçinin axtarış-xilasetmə işlərinə dəstək məqsədilə ləvazimat və avadanlıqlar daxildir.






5

## Hərbi həkimlərimiz 8 cərrahi əməliyyatı uğurla icra edib, zərərçəkmiş 62 nəfərə ambulator yardım göstəriblər

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Türkiyəyə ezam olunan Azərbaycan Ordusunun hərbi tibb personalı Kahramanmaraşda fəaliyyətini davam etdirir.**



5

## Qardaş ölkəyə dəstək mənəvi borcumuzdur

### Türkiyəyə qardaş yardımları davam edir

**Fevralın 6-da Türkiyədə baş vermiş iki güclü zəlzələ ilə bağlı təbii fəlakətdən zərərçəkmişlərə Azərbaycan tərəfindən humanitar yardımlar davam edir.**

Elə ilk gündən Prezident İlham Əliyevin göstərişi ilə qardaş ölkəyə dəstək olmağa başlanılıb və bu, davam edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi ilə də Türkiyəyə tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər və digər əşyalar çatdırılır. Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi tərəfindən başladılan yardım kampaniyası hələ bir müddət davam edəcək.

Hər günündə bir-birinin yanında olan iki ölkənin sevinci də, kədəri də eynidir. İlk gündən Türkiyənin acısını öz kədəri kimi hiss edən xalqımız əlindən gələn köməyi əsirgəmir. Elə bunun nəticəsidir ki, Azərbaycanın, demək olar ki, bütün bölgələrində qardaş ölkəyə humanitar yardım məqsədilə kampaniyalara başlanılıb. Bütün bunlar iki dövlətin, xalqın həmrəyliyinin, birliyinin, dostluq və qardaşlığa sədaqətinin göstəricisidir.

6

## İranın molla rejimi məhvə məhkumdur

Azərbaycan xalqının müqavimətini, mübarizə əzmini qıra bilməyən mollalar müxtəlif adlar altında qisasçılıq siyasəti yürüdürlər. Güney Azərbaycandakı soydaşlarımız isə milli haqlarının təmin edilməsi üçün mücadilə edirlər. Molla rejiminə qarşı keçən ilin sentyabrından başlanan etiraz aksiyaları hələ də davam edir və təəssüflər olsun ki, hakimiyyət tərəfindən soydaşlarımıza amansız divan tutulur. Hazırda onlarca azərbaycanlı fəal rejim tərəfindən həbs edilərək həbsxanalara salınıb və orada amansız işgəncələrə məruz qalıblar. Etiraz aksiyaları başlayandan indiyə qədər bir neçə gənc azərbaycanlı fəal da Tehran rejimi tərəfindən edam edilib və soydaşlarımız uzun müddətdir ki, "Edamlara yox!" şüarı ilə molla rejiminə qarşı etiraz səslərini ucaldırlar. Son günlər baş verən edamlar, həqiqətən də, rejimin soydaşlarımıza qarşı münasibətini ortaya qoyur. Etiraz dalğası genişləndikcə və daha çox Azərbaycan kəndlərini, şəhərlərini əhatə etdikcə molla rejimi daha sərt üsullara əl atır. Onu da qeyd edək ki, həbs olunanlar, ağır işgəncələrə məhkum edilənlər arasında qadınlar da az deyil.



9

## Milli əzmkarlığın nümunəsi

İştirakçılar öz haqlı tələblərini səsləndirir, sərvətlərimizin mühafizəsi üçün ekoloqların monitorinqinə icazə verilməsini tələb edirlər. Aksiyada "Ekoloji terrora son", "Azərbaycan vahiddir, sərvətinə sahibdir", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır" kimi şüarlar səsləndirirlər. Sülhməramlı qüvvələr də aksiyanın gedişatına qarışmır və yaxşı başa düşürlər ki, azərbaycanlı fəallar Laçın yolunu blokadaya almayıblar, bu yol humanitar məqsədlər üçün açıqdır. Ermənilər dünyaya bəyan etsələr də ki, guya orada insan haqqları tapdanır, yalan və faydasızdır. Əraziyə gələn əcnəbi jurnalistlər də bildirirdilər ki, aksiya dinc ermənilər üçün problem yaratmır.

Azərbaycan tələbləri yerinə yetirilənə qədər haqlı mübarizəsini davam etdirəcək, ekofəallar dinc aksiya keçirərək sərvətlərimizin mühafizəsini təmin edəcəklər. Azərbaycanlı mütəxəssislərin baxış keçirməsinə icazə verilənə qədər mövqeyimiz dəyişməyəcək. Ona görə də ermənilər bu məsələdə həssaslıq göstərməli, dezinformasiyalar yaymamalı, beynəlxalq ictimaiyyəti aldatmamalıdırlar.

8

## Azərbaycanda da zəlzələ gözlənilirmi?

### Mütəxəssislər ölkəmizin bu təhlükədən hələ ki uzaq olduğunu deyirlər

Azərbaycanda yerli, regional və uzaq zəlzələlər, eləcə də yeraltı partlayışlar Respublika Seysmoloji Xidmət Mərkəzinin seysmik stansiyaları tərəfindən qeydə alınır. Mərkəzin məlumatına görə, ötən il ümumi olaraq 12762 yeraltı təkan qeydə alınıb. Onlardan 2949-u yerli, 4645-i regional, 3776-sı uzaq zəlzələlərdir. Bundan başqa, 1391 yeraltı partlayış da müşahidə olunub. Ölkədə baş verən zəlzələlərdən 17-si hiss olunan olub. Maqnitudası 3-dən yuxarı olan zəlzələ sayı isə 56-dır. Son dövrlərdə Azərbaycanda ən çox zəlzələ 2019-cu ildə müşahidə edilib. Həmin il ölkədə 5442 zəlzələ hadisəsi qeydə alınıb. Burada söhbət 3 baldan yuxarı olan təkanlardan gedir. Daha aşağı bal gücündə olan təkanlar hesabata daxil edilmir. Hesabat dövründə ən az seysmik təkan isə 2010-cu ildə müşahidə edilib.

12

## ABŞ Rusiya ilə START üzrə danışıqların bərpasına hazırdır



12

## Ermənistanda etirazlara vəkillər də qoşulub

**Hazırda əksər göstəricilərə görə dünya ölkələrinin reytinq cədvəlində son yerlərdə qərarlaşan Ermənistanda miqyası sürətlə genişlənən əsas problemlərdən biri də korrupsiyadır.**

Məğlub ölkənin özündə də açıq etiraf edilir ki, korrupsiya və rüşvətxorluq bir dövlət olaraq Ermənistanın tənəzzülünü daha da sürətləndirir. Bunun nəticəsidir ki, hətta ölkənin rəsmi dairələrinin özləri belə dövlətin bütün strukturlarında dərin kök salmış korrupsiyanın miqyasının təhlükəli həddə qədər yüksəlməsini gizlətməkdə acizlik çəkirlər.

Baş nazir Nikol Paşinyan mətbuata açıqlamalarında korrupsiya və rüşvətxorluğun ölkəsi üçün kifayət qədər ciddi problem yaratdığını diqqətə çatdırıb. O, buna qarşı mübarizə aparıldığını bildirəndə ölkə müxalifəti bunun gülməli və yalnız kütləyə hesablanmış fikirlər olduğunu vurğulayıb.

12

# Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə **qərara alıram:**

Məhkəmə orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şərəf" ordeni ilə**

Rzayev Ramiz Yaqub oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Yusifov Şahin Yaşar oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Abiyeva Kəmalə Nəbi qızı
Ağazadə Müzəffər Abusət oğlu
Əsədov Bağır Həbib oğlu
Əsgərov Çingiz İsgəndər oğlu
Hacıyev Sənan Firudin oğlu
Kazımov Tahir Ləlekişi oğlu
Məmmədov Xəqani Səyyad oğlu
Nəsibov Hafiz Qənbər oğlu
Rəsulbəyova Nigar İmran qızı

**"Tərəqqi" medalı ilə**

Abbasov Aqil Əzizağa oğlu
Abdullayev Bəşir Tarverdi oğlu
Abdulov Rəşad Məhərrəm oğlu
Babayev Zəki Baba oğlu
Bədəlov Kəmaləddin Nurəddin oğlu
Cəfərov Vidadi Cəfər oğlu
Dadaşov İlqar Ağa Babaş oğlu
Əhmədov Əhməd Abbas oğlu
Əhmədova Mehparə Tofiq qızı
Əliyev Ələsgər Əliabbas oğlu
Əliyev Zaur Əli oğlu
Həsənov Mahir Əsgər oğlu
Həsənov Vüqar Təvəkgül oğlu
Hüseynov Abiddin Qabil oğlu
Hüseynov İlqar Kamil oğlu
Xıdırov Əhliman Mehman oğlu
Kərimov Səyyad Əli oğlu
Qəribov Bəhman Fərhad oğlu
Qılıcov İlqar Səyyad oğlu
Quliyev Zakir Müslüm oğlu
Məmmədli Bəhram Məmməd oğlu
Məmmədov Vidadi Məmməd oğlu
Mövsümov Nazim Rasim oğlu
Nəbizadə Rahib Sahib oğlu
Novruzov Ələsgər Əli İskəndər oğlu
Nurməmmədov Əhməd Güləhməd oğlu
Rəcəbov İlkin Əbülfəz oğlu
Seyidov Əziz Cəfər oğlu
Şamayev Elşad Yaquboviç
Şəfiyev İspəndiyar Əsəd oğlu
Vəliyeva Elşanə Rafiq qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2023-cü il*

# *Müdafiə naziri:* "Azərbaycan Ordusu hər zaman qardaş Türkiyənin yanındadır"

**Fevralın 11-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, həmçinin videobağlantı vasitəsilə hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə qardaş Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qardaş ölkəyə hərtərəfli yardımların göstərilməsi ilə əlaqədar tapşırıqlarını diqqətə çatdırıb.

General-polkovnik Z.Həsənov Azərbaycan Respublikasının Prezidentinin göstərişinə uyğun olaraq Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə Müdafiə Nazirliyinin müvafiq hərbi hissələrində təşkil olunan məntəqələrdə yardımların toplanmasında fəal iştirak edən hərbi qulluqçulara və onların ailə üzvlərinə təşəkkürünü bildirib.

Türkiyəyə ezam olunmuş hərbi tibb personalımızın Kahramanmaraşda fəaliyyətini yüksək qiymətləndirən nazir Azərbaycan Ordusunun hər zaman qardaş Türkiyənin yanında olduğunu xüsusi vurğulayıb.

Azərbaycan Ordusunun bölmələrinin daim döyüşə hazır olması ilə bağlı Ali Baş Komandan tərəfindən qarşıya qoyulmuş vəzifələri müşavirə iştirakçılarına çatdırdıqdan sonra general-polkovnik Z.Həsənov bölmələrin döyüş qabiliyyətinin yoxlanılmasının nəticələri barədə məruzələri dinləyib.

Yoxlamaların nəticələrini yüksək qiymətləndirən nazir döyüş hazırlığı tədbirlərinin maksimum real döyüş şəraitinə uyğun təşkil edilməsinə dair aidiyyəti üzrə vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

Müşavirə zamanı sərhəddə, eləcə də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonundakı ərazilərimizdə mövcud əməliyyat şəraiti geniş təhlil edilib. General-polkovnik Z.Həsənov ehtimal olunan təhdidlərə qarşı qabaqlayıcı tədbirlərin görülməsi barədə konkret tapşırıqlar verib.

Qarsda keçirilən "Qış təlimi-2023"dən danışan nazir təlimdə iştirak edən hərbi qulluqçuların yüksək peşəkarlığına dair Azərbaycan və Türkiyə müdafiə nazirlərinin həmfikir olduqlarını qeyd edib.

Müşavirədə xüsusilə sərt iqlim şəraitində çətin relyefli ərazilərdə dislokasiya olunan bölmələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması, eləcə də xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı təhlükəsizlik qaydalarına əməl edilməsi və yanğın əleyhinə zəruri tədbirlərin görülməsinin vacibliyi qeyd olunub. Döyüş növbətçiliyinin aparılması zamanı sayıqlığın artırılması barədə konkret tapşırıqlar verilib.

Hərbi təhsil müəssisələrinin fəaliyyəti barədə məruzələr dinlənildikdən sonra müdafiə naziri bu istiqamətdə görülən işlərlə bağlı aidiyyəti şəxslərə müvafiq göstərişlər verib.

General-polkovnik Z.Həsənov şəxsi heyətə, xüsusilə gənc əsgərlərə diqqət və qayğı ilə yanaşılması, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də tibbi təminat məsələləri və mühəndis tədbirləri ilə bağlı müvafiq tapşırıqlar verib.

# İnformasiya və rəqəmsal media savadlılığının artırılmasına dair fikir mübadiləsi aparılıb

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin təşkilatçılığı və Medianın İnkişafı Agentliyinin (MEDİA) dəstəyi ilə Şəxsi Heyət Baş İdarəsində "Media savadlılığı" mövzusunda seminar keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla anılıb.

Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq edilmiş nazirliyin Kommunikasiya Strategiyasının icrasına dair "İşçi qrup"unun üzvləri, eləcə də Azərbaycan Ordusunun mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul şəxslərinin iştirak etdiyi tədbirdə MEDİA nümayəndələri tərəfindən brifinq təqdim olunub. Kütləvi informasiyanın məzmunu, ötürülməsi və istehlakı üzrə biliyə sahibolma, tənqidi dəyərləndirmə, müxtəlif kontekstlərdə istifadə və təhlil qabiliyyəti barədə müzakirələr edilib.

Tədbirdə Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyasının icrası, o cümlədən mətbuat və ictimaiyyətlə əlaqələr sahəsində görülən işlər, informasiya və rəqəmsal media savadlılığının artırılmasına dair ətraflı fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının Sədri Nosivive Mapisa Nqakula ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri Nosivive Mapisa Nqakula Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayaraq dəvəti qəbul edib bu ölkəyə səfər etdiyi üçün Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkür edib. Milli Assambleyanın Sədri Prezidentin xalqa müraciətinin onlar üçün mühüm hadisə olduğunu qeyd edərək Azərbaycan nümayəndə heyətinin bu tədbirdə iştirakını yüksək qiymətləndirib.

Görüşdə Nosivive Mapisa Nqakula ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını deyib, ikitərəfli münasibətlərn genişləndirilməsində qarşılıqlı səfərlərin və təmasların rolundan danışıb. Parlamentlər arasında münasibətlərin gücləndirilməsində dostluq qruplarının əhəmiyyətini vurğulayan Milli Assambleyanın Sədri bu istiqamətdə səylərini artıracaqlarını qeyd edib.

Nosivive Mapisa Nqakula Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirib. O, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakıda keçirilmiş birinci konfransının işinin yüksək səviyyədə təşkil olunduğunu, konfransda qəbul olunmuş sənədlərin vacibliyini vurğulayıb. Xanım Nqakula Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini deyib. O bildirib ki, Qoşulmama Hərəkatı CAR-ın müstəqil və demokratik inkişafına böyük dəstək verib. Ona görə də CAR bu təşkilata böyük əhəmiyyət verir və onun Parlament Şəbəkəsində iştirakını vacib hesab edir. Qeyd olunub ki, artıq təşkilatda Milli Assambleyanın nümayəndə heyəti formalaşdırılıb.

Assambleya Sədri qanunvericilik orqanları arasında əlaqələrin möhkəmləndirilməsinin təcrübə və informasiya mübadiləsi baxımından önəmli olduğunu söyləyib, deputatlarımızın həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığının əhəmiyyətindən bəhs edib. O, Azərbaycanda gənclərə göstərilən diqqət və qayğını, xüsusilə təhsil sahəsində əldə olunan nailiyyətləri yüksək qiymətləndirib və Azərbaycanın bu sahədə təcrübəsinin onun ölkəsi üçün yaxşı bir örnək olduğunu və onu öyrənmək istədiklərini qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova rəsmi səfərə dəvətə görə təşəkkürünü ifadə edərək bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə inamını ifadə edib. Spiker Milli Assambleyanın Sədri ilə ötən il həm Bakıda, həm də İndoneziyanın paytaxtı Cakartada keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, bu cür görüşlərin və qarşılıqlı dialoqun parlamentlərimiz arasında əlaqələrin daha da dərinləşməsinə imkan verdiyini bildirib.

Dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin rolundan danışan spiker Sahibə Qafarova Milli Məclisdə Cənubi Afrika Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyət göstərdiyini bildirib. O, həm ikitərəfli formatda, həm də beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın vacib olduğunu deyib, bununla yanaşı, parlament komitələri arasında əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib.

Milli Məclisin Sədri Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi uğurlu fəaliyyəti, bu qurumun ölkəmizdə təşkil olunmuş mötəbər toplantıları barədə danışıb. Milli Məclisin Sədri dövlətimizin başçısı İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi mühüm təşəbbüslərlə çıxış etdiyini və bu təşəbbüslərin beynəlxalq birlik tərəfindən dəstəkləndiyini vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə uyğun olaraq qurumun Parlament Şəbəkəsinin yaradılmasından, onun təsis toplantısından, Bakıda keçirilən birinci konfransı, bu konfransda qəbul olunan mühüm əhəmiyyətli sənədlərdən, qarşıda duran vəzifələrdən bəhs edib.

Milli Məclisin Sədri görüşdə həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatının təsis olunmasını da diqqətə çatdıraraq qeyd edib ki, bu da gənclər arasında əməkdaşlığın daha da genişlənməsinə xidmət edir. Sahibə Qafarova xatırladıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan tərəfindən Qoşulmama Hərəkatına üzv ölkələrə təhsil qrantları ayrılır. O deyib ki, Cənubi Afrika Respublikasından olan gənclər bu qrantlardan faydalanırlar və onları bu imkandan daha aktiv yararlanmağa dəvət edirik.

Spiker Sahibə Qafarova Cənubi Afrika Respublikasının nümayəndə heyətinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Madriddə keçirilən təsis konfransında və Bakıda keçirilən birinci konfransında iştirakını məmnunluqla qeyd edərək vurğulayıb ki, Parlament Şəbəkəsi parlamentlərimiz arasında əməkdaşlığın genişləndirilməsinə imkan verən yaxşı platformadır.

Milli Məclisin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəsindən, öz ərazi bütövlüyünü bərpa etməsindən bəhs edib. O, münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş və ərazilərimizin işğaldan azad edilməsini tələb edən qətnamələrin uzun müddət icra olunmadığını, nəhayət, 2020-ci ildə Azərbaycanın öz gücünə həmin qətnamələrin yerinə yetirilməsini təmin etdiyini bildirib. O, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunan qətnamələrin bəzi hallarda dərhal icra olunduğunu, Azərbaycan torpaqlarının işğaldan azad olunmasını tələb edən qətnamələrin isə 30 ilə yaxın həyata keçirilmədiyini diqqətə çatdırıb. Spiker buna beynəlxalq münasibətlər sistemində hökm sürən ikili standartların səbəb olduğunu deyib.

Milli Məclisin Sədri hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətlə həyata keçirildiyini, yeni infrastrukturların yaradıldığını, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması istiqamətində lazımi tədbirlərin görüldüyünü söyləyib. Torpaqlarımızda Ermənistan tərəfindən minaların basdırıldığı və bunun aparılan quruculuq işlərinə maneələr törətdiyi qarşı tərəfin diqqətinə çatdırılıb. O, Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında iki ölkə arasında sülh sazişinin imzalanmasını təklif etdiyini, lakin Ermənistanın danışıqlarda destruktiv mövqe nümayiş etdirdiyini təəssüflə qeyd edib. Sahibə Qafarova Azərbaycanın regionda davamlı sülh, əmin-amanlıq və təhlükəsizliyin təmin olunmasında hər zaman səylərini əsirgəmədiyini bildirib.

Söhbət zamanı parlamentin Sədri cari il yanvarın 27-də Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktından da danışıb. O, bu terror hücumu nəticəsində səfirliyimizin bir əməkdaşının həlak olduğunu, iki əməkdaşının yaralandığını söyləyib. Milli Məclisin Sədri deyib ki, biz bunu terror aktı kimi qiymətləndiririk və bu hadisənin ədalətli araşdırılmasını, cinayətkarların cəzalandırılmasını tələb edirik. O qeyd edib ki, beynəlxalq ictimaiyyət bu terror hadisəsini pisləməli və buna layiqli qiymət verməlidir.

CAR Milli Assambleyasının Sədri Nosivive Mapisa Nqakula bu hadisə ilə bağlı başsağlığını ifadə edərək deyib ki, terrorizmin bütün formaları qəti şəkildə pislənilməli və qınanmalıdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# *Vüqar BAYRAMOV:* "Sosial paketin daha da dərinləşməsi müşahidə edilir"

**"Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncam pensiyaçıların sosial təminatının yaxşılaşdırılması baxımından yeni bir addımdır".**

Bunu AZƏRTAC-a Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

Sərəncama əsasən, orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2023-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının indeksləşdirilməsi həyata keçiriləcəyini deyən deputat, eyni zamanda ötənilki inflyasiya dərəcəsinə uyğun pensiya kapitalı məbləğlərinin indeksləşdiriləcəyini də qeyd edib. O xatırladıb ki, bütün növ əmək pensiyaları bu ildən etibarən 14,7 faiz, pensiya kapitalı isə 13,9 faiz artırılacaq. "Pensiya kapitalındakı artım həmin məbləğin inflyasiyadan qorumaq məqsədi daşıyır", - deyib.

O bildirib ki, 2023-cü ildən etibarən sosial paketin daha da dərinləşməsi müşahidə edilir. "Praktik olaraq indeksləşmə ilə bağlı sərəncam 1 milyon 100 mindən artıq vətəndaşı əhatə edəcək. Bu, bütün növ əmək pensiyalarının indeksləşməsi mənasına gəlir. Eyni zamanda vahid indeksasiya mexanizminin tətbiq edilməsi əvvəlki illərdə pensiyaları indeksləşdirilməyən təxminən 99 min vətəndaşımızın bu ildən pensiya məbləğinin artırılmasına səbəb olacaq".

Pensiyaların 2022-ci ilin orta əməkhaqqındakı artım faizinə uyğun hesablandığını qeyd edən deputat: "Bu sərəncam vasitəsilə bütün növ əmək pensiyalarında artımlar müşahidə ediləcək. Artıq pensiyaçılar fevral ayında yanvar ayının artımı ilə birlikdə pensiyalarını almaq imkanına malik olacaqlar. Sərəncamın fevral ayında imzalanmasına baxmayaraq, artım yanvar ayından hesablanacaq və fevral ayında vətəndaşlara ödəniləcək",- deyə bildirib.

# Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin 2022-ci ildəki fəaliyyətinin yekunlarına dair müşavirə keçirilib

**Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) 2022-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirə keçirilib.**



XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən Xidmət rəisi general-leytenant İlqar Musayev fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində çoxlu sayda insanın həlak olması, yaralanması və genişmiqyaslı dağıntıların xalqımızı da dərindən sarsıtdığını qeyd edib, çoxsaylı insan tələfatı ilə bağlı qardaş Türkiyə xalqına başsağlığı verib, yaralıların tezliklə şəfa tapmasını diləyib.

Tədbir iştirakçıları zəlzələ nəticəsində həlak olanların xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

İlqar Musayev çıxışında 2022-ci ildə dünyada yaşanan mürəkkəb ictimai-siyasi proseslərin bəzi ölkələrdə iqtisadi böhranlar yaratmasına baxmayaraq, Azərbaycan Prezidentinin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində respublikamızın iqtisadiyyatında mühüm uğurların əldə olunduğunu vurğulayıb.

Müşavirədə Azərbaycan Prezidentinin informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsinin inkişafına xüsusi diqqət yetirdiyi qeyd olunub. Hesabat ilində bu sahədə bir sıra mühüm fərman və sərəncamların imzalanmasının və müvafiq qərarların qəbul edilməsinin bu diqqət və qayğının göstəricisi olduğu bildirilib.

Tədbirdə hesabat dövründə XRİTDX tərəfindən dövlət orqanlarının xüsusi dövlət rabitəsi, hökumət rabitəsi, xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemləri və şəbəkələri ilə təmin edilməsi, onların internet şəbəkəsi ilə əlaqəsi və internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsi, istismarı, təhlükəsizliyi və inkişafı, o cümlədən digər sahələrdə görülən işlər, mövcud nöqsanlar və cari ildə qarşıda duran vəzifələrdən danışılıb.

Müşavirədə Xidmətin struktur bölmələrinin rəhbərləri və digər şəxslər fəaliyyət istiqamətlərinə uyğun olaraq, ötən ilin nəticələri barədə hesabat məruzələri ilə çıxış ediblər.

Sonda Xidmət rəisi 2023-cü ilin Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev İli" elan edildiyini xatırladaraq, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə XRİTDX tərəfindən bir sıra tədbirlərin təşkili və həyata keçirilməsi barədə məlumat verib.




# Xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin Kahramanmaraş şəhərinə səfər edib

**Fevralın 11-də xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının böyük insan tələfatı və dağıntılara səbəb olan zəlzələ nəticəsində zərərçəkmiş Kahramanmaraş şəhərinə səfər edib. Nazir Ceyhun Bayramovu hava limanında Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu qarşılayıb.**















Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Ceyhun Bayramov Türkiyə Respublikasının Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) Mərkəzini, Daxili İşlər Nazirliyinin Kahramanmaraş Bölgə Mərkəzini, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələrinin bazasını və xilasedicilərimizin fəaliyyət göstərdiyi sahəni, o cümlədən Azərbaycan tərəfindən zəlzələ zonasına göndərilmiş səhra xəstəxanasını ziyarət edib, mətbuat konfransında media nümayəndələrinin suallarını cavablandırıb.

AFAD Mərkəzini və Daxili İşlər Nazirliyinin Kahramanmaraş Bölgə Mərkəzini ziyarət edən nazir zəlzələ bölgəsində dağıntılar altında qalmış vətəndaşların xilas edilməsi, təxliyəsi, həmçinin təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində AFAD tərəfindən görülən genişmiqyaslı işlərlə tanış olub.

Ceyhun Bayramov həmkarı Mövlud Çavuşoğlu və Türkiyənin daxili işlər naziri Süleyman Soylunun iştirak etdikləri tədbirdə çıxış edərək Türkiyə dövlətinə və xalqına başsağlığı diləklərini çatdırıb. Azərbaycanın daim qardaş Türkiyənin yanında olduğunu qeyd edən nazir fəlakətin ilk günündən Prezident İlham Əliyevin tapşırığına əsasən ölkəmiz tərəfindən həyata keçirilən dəstək tədbirləri barədə məlumat verib.

Sonra Ceyhun Bayramov Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması, habelə dağıntılar altında qalmış vətəndaşların xilas edilməsi məqsədilə fəaliyyət göstərən FHN-in çevik xilasetmə qüvvələrinin bazasını, o cümlədən onların çalışdıqları ərazini ziyarət edib. Axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz şəkildə davam etdirən xilasedicilərimizin fəaliyyəti, indiyədək görülən işlərin nəticələri ilə tanış olan nazir zəlzələdən zərər çəkmiş şəxslərin həyatının xilas olunması istiqamətində fədakar fəaliyyətlərinə görə onlara təşəkkür edib.

Türkiyədə baş vermiş zəlzələdə xəsarət alan şəxslərə zəruri tibbi xidmətlərin göstərilməsinə dəstək məqsədilə Azərbaycan tərəfindən göndərilmiş səhra xəstəxanasını ziyarət edən nazir bütün lazımi avadanlıq və dərman vasitələri ilə tam təchiz olunmuş bu xəstəxanada fəaliyyət göstərən həkimlərimiz ilə görüşüb. Həkimlərimizin fəaliyyəti ilə tanış olan Ceyhun Bayramov onlara bu məsuliyyətli işlərində göstərdikləri səylərə görə minnətdarlığını bildirib.

Yekunda media nümayəndələrinin iştirakı ilə təşkil olunmuş mətbuat konfransında çıxış edən nazir səfərin yekunları, zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycan tərəfindən göstərilmiş humanitar yardımlar, o cümlədən baş vermiş zəlzələ nəticəsində zərərçəkmiş Azərbaycan vətəndaşlarının təxliyəsi, həlak olmuş vətəndaşlarımız barədə sualları cavablandırıb.

# Azərbaycan könüllüləri Türkiyəyə yardıma gedirlər

**Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələdən dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan dövləti tərəfindən zəlzələdən zərərçəkmiş qardaş türk xalqına yardım məqsədilə həyata keçirilən və xalqımızın da böyük dəstək verdiyi genişmiqyaslı tədbirlərə könüllü gənclərimiz də qoşulub.**



Gənclər Fondundan AZƏRTAC-a bildirilib ki, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə "ASAN Könüllüləri", "Gənc Könüllülər", "BİR Könüllü", "Aqrar İnkişaf Könüllüləri", "Naxçıvan Könüllüləri", "Böyük qayıdış" könüllüləri və "Ekokönüllülər" təşkilatlarının üzvləri arasından daha təcrübəli və çətin şəraitdə fəaliyyət göstərməyə hazır olan gənclər müəyyən edilərək ilkin təlimatlandırma keçdikdən sonra türkiyəli həmkarlarına dəstək vermək üçün qardaş ölkəyə yola düşüblər.

Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan ittifaqın bu humanitar fəaliyyəti çərçivəsində Azərbaycan könüllülər öz türkiyəli həmkarları ilə zəlzələnin baş verdiyi bölgələrdə faciədən zərərçəkmiş vətəndaşlara yardımların paylanılması, əhalinin istiqamətləndirilməsi, qeydiyyat və müxtəlif əlaqələndirmə işlərində iştirak edəcəklər.

Azərbaycan könüllüləri bir daha dəhşətli faciə ilə üzləşmiş qardaş Türkiyə xalqı ilə həmrəy olduğunu bildirir, bu faciədə həyatını itirənlərin doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyir.

# Əmək və əhalinin sosial müdafiəsi naziri ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb

**Əmək və əhalinin sosial müdafiəsi naziri, "Yüksəliş" Təşkilat Komitəsinin üzvü Sahil Babayev ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri Fərrux Məhərrəmli və Nərgiz Balakişiyeva ilə görüşüb.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müsabiqənin Mentorluq proqramı çərçivəsində keçirilən görüşdə Sahil Babayev qalibləri təbrik edərək onlara gələcək fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Nazir hər iki qalibə təcrübə imkanlarını artırmaq və potensiallarını üzə çıxarmaq üçün birillik fərdi inkişaf planı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən zəruri şərait yaradılaraq dəstək göstəriləcəyini qeyd edib.

S.Babayev əmək, məşğulluq, sosial müdafiə sahələrində son illər aparılan ardıcıl islahatlar, DOST konsepsiyası, sosial sahədə innovativ həllərin, rəqəmsal texnologiyaların geniş tətbiqi işləri, gələcək sosial hədəflər barədə məlumat verib.

F.Məhərrəmli və N.Balakişiyeva onlara təcrübə imkanlarını artırmaq üçün yaradılan şəraitə görə təşəkkürlərini bildiriblər.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə təsis olunub. Müsabiqə 21-51 yaş aralığında, ikiillik idarəçilik təcrübəsi olan, ali təhsilli ölkə vətəndaşlarını əhatə edir. Müsabiqə 5 mərhələdən - qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir. Müsabiqə qalibləri idarəçi rəhbərlər *(https://yukselish.az/mentors.html)* tərəfindən birillik fərdi inkişaf planı və hər biri 20 min manat məbləğində özünüinkişaf qrantı əldə edirlər.

2023-cü ildə də növbəti, sayca 3-cü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə əlaqədar 2022-ci il dekabrın 20-də Prezident İlham Əliyev sərəncam imzalayıb.

# Azərbaycan-Almaniya Yüksək Səviyyəli İşçi Qrupunun növbəti iclası keçirilib

**Berlində Azərbaycan-Almaniya Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupunun 9-cu iclası keçirilib.**




AZƏRTAC xəbər verir ki, iclasa Azərbaycan tərəfdən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Almaniya tərəfindən isə Federal İqtisadiyyat və İqlim Mühafizəsi Nazirliyinin ticarət üzrə direktoru Dominik Şnixels həmsədrlik ediblər.

Tədbirdə Azərbaycan ilə Almaniya arasında iqtisadi-ticari əlaqələrin gücləndirilməsi, ölkəmizdə yaradılan sənaye parklarında, Ələt Azad İqtisadi Zonasında Almaniya şirkətlərinin iştirakı imkanları, alternativ enerji, nəqliyyat sahəsində əməkdaşlığın inkişafı, təcrübə mübadiləsinin genişləndirilməsi barədə müzakirələr aparılıb.

İclasda qlobal iqtisadiyyatın çətin sınaqlardan keçdiyi şəraitdə Azərbaycan iqtisadiyyatının davamlı inkişafı istiqamətində həyata keçirilən struktur və institusional islahatlar, 2030-cu ilədək hədəflər barədə məlumat verilib, görülən işlərin ölkəmizin investisiya cəlbediciliyini artırdığı diqqətə çatdırılıb. Vurğulanıb ki, Azərbaycan ilə Almaniya arasında ticarət, investisiya, sahibkarlıq, nəqliyyat, sənaye, insan resursları sahəsində əlaqələrin möhkəmlənməsi və yeni istiqamətlərdə tərəfdaşlıqların qurulması üçün böyük potensial var. İclasda işğaldan azad olunmuş Azərbaycan ərazilərində biznes imkanları da diqqətə çatdırılıb, Almaniya şirkətləri infrastruktur və investisiya layihələrində iştiraka dəvət edilib.

Federal İqtisadiyyat və İqlim Mühafizəsi Nazirliyinin ticarət üzrə direktoru Dominik Şnixels Azərbaycan-Almaniya Yüksək Səviyyəli İşçi Qrupunun 9-cu iclasında müzakirə edilən məsələlərin ikitərəfli iqtisadi-ticari əlaqələrin inkişafında əhəmiyyətli olacağını qeyd edib, iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivlərinə dair fikirlərini bölüşüb.

Almaniyaya səfər çərçivəsində Berlində Almaniya-Azərbaycan "Menecerlərin ixtisasının artırılması" proqramının Müşahidə Şurasının 3-cü iclası keçirilib və proqram çərçivəsində görülən işlər barədə fikir mübadiləsi aparılıb. İclasda 2009-cu ildən uğurla həyata keçirilən Almaniya-Azərbaycan "Menecerlərin ixtisasının artırılması" proqramının Azərbaycan sahibkarlarına inkişaf üçün əlavə imkanlar açdığı vurğulanaraq, 500-dən çox sahibkar və menecerin proqramdan yararlandığı diqqətə çatdırılıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti "Adlershof" Texnologiya Parkı ilə tanış olub.

# Son illərin makroiqtisadi göstəricilərindəki artım faizlərlə yox, dəfələrlə ifadə olunur

**Hər bir ölkənin dinamik inkişafı bir çox amillərlə yanaşı, daha çox investisiya qoyuluşundan asılıdır. Çünki iqtisadiyyatın davamlı artımı üçün onun fasiləsiz kapitallaşması müstəsna əhəmiyyət daşıyır.**

Məlumdur ki, investisiya qoyuluşu iki mənbədən - yerli və xarici kapital qoyuluşu ilə formalaşır. Bu iki mənbə arasında isə xarici sərmayənin səmərəsi daha çoxdur. Səbəbləri məlumdur, üstündə durmayacağıq. Amma məsələ ondadır ki, xarici sərmayədarlar investisiya qoyuluşunda çox ehtiyatlı davranırlar. Onlar ilk növbədə ölkənin iqtisadi inkişafına, ən əsası isə kapitalın bütün səviyyələrdə qorunmasına xüsusi diqqət yetirirlər. Yabançı sərmayədarlar tam əmin olmasalar ki qoyduğu vəsait qarşılığında yaxşı gəlir götürməyəcəklər, əllərini ciblərinə atmazlar. Ona görə də istər yerli olsun, istərsə də gəlmə, investisiya yatıran sahibkarların əsas diqqət yetirdikləri qanunvericilik bazasıdır.

Bu səbəbdən ölkəmizdə də investisiyanın ən böyük zəmanəti mükəmməl qanunvericilik bazasının olmasıdır. Üstəlik, Azərbaycanda xüsusən xarici sərmayənin cəlb olunması üçün bir sıra güzəştlər edilir. Bunun nəticəsidir ki, ölkəmiz sərmayə qoyuluşu üzrə MDB məkanında liderlərdən sayılır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirir ki, 19 ildə Azərbaycanın ümumi daxili məhsul (ÜDM) istehsalında 3,4 dəfə artım qeydə alınıb. Son rəsmi məlumata görə, 2003-cü ilə nisbətən 2021-ci ildə qeyri-neft-qaz sektoru üzrə ÜDM istehsalı 3,1, sənaye məhsulları istehsalı üzrə 2,7, o cümlədən qeyri-neft-qaz sənayesi üzrə 3,6 dəfə artıb. Bu dövr ərzində iqtisadiyyatın digər sahələrində də əhəmiyyətli artım baş verib. Məsələn, həmin illər ərzində kənd təsərrüfatı məhsulları istehsalında 2, yük daşınmasında 1,8, sərnişin daşınmasında 1,3, informasiya və rabitə xidmətlərinin həcmində 15,4 dəfə artım müşahidə olunub. Amma bunlar da hələ hamısı deyil. 2003-2021-ci illərdə əsas kapitala yönəldilən vəsaitlərin həcmi 2,7, o cümlədən tikinti-quraşdırma işlərinə yönəldilən vəsaitlər 4,1 dəfə artıb. 2004-2021-ci illərdə Azərbaycana ümumilikdə 288,9 milyard dollar həcmində investisiya qoyulub. 2021-ci ilin göstəricilərini də nəzərə alanda Azərbaycana son 19 ildə 300 milyard dollara yaxın sərmayə yatırılıb. Xarici investisiya qoyuluşu 2,2, qeyri-neft-qaz sahələrinə yönəldilən sərmayə 7,2 dəfə artıb. Bu, təxminən 179,5 milyard dollar investisiya deməkdir. 2004-2021-ci illərdə Azərbaycan həm də xarici ölkələrin iqtisadiyyatlarına sərmayə yatırıb, özü də nə az, nə çox - 28,3 milyard dollar. Ölkə daxilində isə iqtisadiyyatın kreditləşdirilməsi 25,5 dəfə yüksəlib.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev dördüncü sosial paketi təsdiq etmişdir. Bu, təbiidir - dövlətin maliyyə imkanları artdıqca sosial sahəyə daha çox vəsait ayırmağa imkan yaranır. Yenə də statistikaya nəzər salaq: 2003-2021-ci illərdə dövlət büdcəsinin gəlirləri 21,6, xərcləri isə 22,2 dəfə artıb. Dövlət bu imkandan istifadə edərək əhalinin sosial rifah halının yaxşılaşması üçün müvafiq tədbirlər görüb. Nəticədə həmin dövr ərzində əhalinin nominal gəlirləri 10 dəfə çoxalıb. Təkcə 2021-ci ildə ölkə üzrə orta aylıq nominal əməkhaqqı 2003-cü illə müqayisədə 9,5, pensiyaların orta aylıq məbləği 13,9 dəfə artıb. Minimum əməkhaqqı 27,8, əmək pensiyasının minimum məbləği 10 dəfə yüksəlib.

İqtisadiyyatımız inkişaf etdikcə xarici ticarət əlaqələrimiz də genişlənib. Belə ki, 2003-2021-ci illərdə Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-ə çatıb. Xarici ticarət dövriyyəsi 6,5, o cümlədən idxal 4,5, ixrac 8,6 dəfə artıb. Qeyri-neft-qaz məhsullarının ixracı isə 7,3 dəfə yüksəlib.

Yüksəliş tendensiyası yola saldığımız 2022-ci ildə də davam etmişdir. Ötən il 133,8 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 4,6 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,7 faiz azalsa da, qeyri-neft-qaz sektorunda 9,1 faiz artmışdır. ÜDM istehsalının 51,1 faizi sənaye, 8,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,8 faizi tikinti, 1,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,4 faizi informasiya və rabitə sahələrinin, 14,7 faizi digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,4 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 13 min 292,2 manata bərabər olmuşdur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023

## Naxçıvanın inkişafı Heydər Əliyevin fədakar fəaliyyəti sayəsində mümkün olmuşdur

**Ümummilli Lider Heydər Əliyev mənalı ömrünün hər anını xalqının tərəqqisinə və rifahına həsr etmiş, dünya xalqları arasında şərəfli yer tutmasına, doğma yurdu Azərbaycanın nüfuzunun yüksəlməsinə hər zaman çalışmışdır.**



Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, istər Naxçıvanda adi dövlət məmurundan tutmuş SSRİ kimi nəhəng imperiyanın başçılarından birinə qədər yüksəldiyi totalitar sovet cəmiyyətində, istər düşmən mənggənəsində ölüm-dirimlə çarpışan Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi, qurucusu olduğu müstəqillik dövründə də yalnız bu amallarla yaşamış, xalqına xidməti həyatının mənası, fəaliyyətinin məramı hesab etmişdi.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə ölkə həyatının bütün sahələrində çox böyük müsbət dəyişikliklər baş verdi. Sovet totalitar rejiminin yaratdığı məhdud imkanlardan məharətlə istifadə edən Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla, onun çiçəklənməsi üçün mümkün olanı etmişdi. Hələ o zaman Azərbaycanın gələcək müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar - iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdi. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sahəsində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu. Bugünkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1970-1980-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavod və fabriklər Azərbaycanın iqtisadi və sosial potensialına böyük dəstəkdir. Əgər bu dövrdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı, xüsusilə neft sahəsində, neft emalı sahəsində nəhəng qurğular tikilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi. İctimai-siyasi quruluşundan asılı olmayaraq, bütün zamanlarda Heydər Əliyev liderlik keyfiyyətləri ilə xalqa, millətə bağlı olduğu üçün, böyük işlər görmək üçün gözəl şərait yaratmışdı. Lakin təbii ki, Azərbaycanın ən ağır dövrü olan müstəqilliyimizin ilk illəri də Heydər Əliyevin fəaliyyətində həlledici idi".

1993-cü ildə öz müstəqilliyini, dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşərkən xalqımız yenidən öz taleyini milli liderinə etibar etməli oldu. Xalqının israrlı təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi ilə ölkəni təhlükələrdən xilas etdi, cəmiyyəti vahid məfkurə ətrafında birləşdirdi.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün fəaliyyəti ərzində vətəninə xidməti ilə azərbaycançılıq nümunəsini nümayiş etdirmişdi. O əsl millət rəhbəri, dövlət başçısı kimi Azərbaycanın bütün bölgələrinin ahəngdar inkişafına böyük diqqət yetirmiş, hər bir rayonun, kəndin, qəsəbənin tərəqqisinə və yüksəlişinə çalışmışdı. Heydər Əliyevin məqsədyönlü siyasəti və böyük təşkilatçılıq qabiliyyəti nəticəsində Azərbaycanın bölgələrində yüksək sosial-iqtisadi və mədəni göstəricilər əldə edilmiş, Bakıdan əlavə, ölkənin digər yerlərində də iri sənaye və kənd təsərrüfatı mərkəzləri formalaşmışdı. Vətənin torpağı, hər guşəsi onun üçün müqəddəs və əziz idi.

Heydər Əliyevin vətən məhəbbəti, hər hansı etnik, regional amillərin fövqündə dayanan ilahi məhəbbəti idi. Heydər Əliyev özünün dediyi kimi, Yardımlıya da, Lənkərana da, Qusara da, Gəncəyə də, Naxçıvana da eyni münasibət bəsləyir, qətiyyən fərq qoymurdu.

Təbii ki, bütün insanlarda olduğu kimi, Heydər Əliyevin də öz kiçik diyarına - Naxçıvana xüsusi sevgisi və ehtiramı var idi. Özünün də qeyd etdiyi kimi, o, bu torpaqda doğulmuş, burada təhsil almış, buradan həyata addımlamış, daim bu torpaqla bağlı olmuş, buna görə də bütün dövrlərdə öz doğma yurduna xidmət etmək üçün əlindən gələni etmişdir.

İkincisi, Heydər Əliyev peşəkar tarixçi, təhlükəsizlik orqanlarının təcrübəli rəhbər işçisi kimi bu regionun hansı mürəkkəb geosiyasi və coğrafi şəraitdə yerləşdiyini, ermənilərin tarixən bu torpağı ələ keçirmək üçün hansı fitnələrə əl atdığını çox gözəl anlayır, buna görə də muxtar respublikanın təkcə sosial-iqtisadi inkişafına deyil, hərbi-siyasi cəhətdən möhkəmlənməsinə, burada Azərbaycanın milli mənəvi, sosial-demoqrafik faktorlarının daha da artaraq mütləq üstünlük təşkil etməsinə çalışırdı. Bu məqsədlə hələ sovet hakimiyyəti illərində muxtar respublikada iri sənaye potensialının yaradılmasına, kənd təsərrüfatının inkişaf etdirilməsinə, sosial infrastrukturun, elm, təhsil sisteminin formalaşdırılmasına, ziyalı təbəqənin, kadr potensialının yüksəldilməsinə şərait yaradan kompleks qərarlar vermişdi.

Müstəqillik dövründə isə Ermənistan tərəfindən hərbi, iqtisadi blokadaya alınmış muxtar respublikanın düşmən əlinə keçməməsi, siyasi, iqtisadi və mənəvi böhrandan çıxması yalnız Heydər Əliyevin misilsiz, fədakar fəaliyyəti sayəsində mümkün olmuşdur.

Üçüncüsü, Heydər Əliyevə qədər Naxçıvan MR iqtisadiyyatı və mədəniyyəti çox ləng inkişaf edirdi, bir çox göstəricilərə görə muxtar respublika Azərbaycanın və respublikanın digər rayonlarından, xüsusən DQMV-dən dəfələrlə geridə idi. Məsələn, 1960-cı illərin sonlarında adambaşına düşən sənaye məhsulunun həcmi Azərbaycan üzrə 828 manat, DQMV üzrə isə 700 manat aldığı halda, Naxçıvan MR üzrə bu göstərici 263 manat idi. Pərakəndə ticarətin həcmi isə müvafiq olaraq 382, 358, 267 manat idi. Mərkəzi hakimiyyət Dağlıq Qarabağın iqtisadi və sosial inkişafına daha çox diqqət ayırır, təbii sərvətlərlə zəngin olan Naxçıvan MR-də isə məhsuldar qüvvələrin inkişafına bilərəkdən etinasızlıq göstərirdi. Zəngəzurun Ermənistana verilməsiylə Azərbaycandan təcrid vəziyyətinə salınmış Naxçıvanı iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək, bu yolla naxçıvanlıları ata-baba torpaqlarından didərgin salmaq siyasəti yeridilirdi.

Çox təəssüf ki, Azərbaycanın əvvəlki rəhbərliyi də Naxçıvana laqeyd və ögey münasibət göstərir, muxtar respublikanın inkişafı üçün kifayət qədər əməli addımlar atmırdı.

1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldikdən sonra Naxçıvana qarşı yeridilən bu ayrı-seçkilik siyasətini açıq şəkildə tənqid edən Heydər Əliyev ədalətsizliyi aradan qaldırmaq, bu diyar da daxil olmaqla, Azərbaycanın bütün bölgələrinin dinamik, proporsional inkişafını təmin etmək üçün ciddi fəaliyyətə başladı. Naxçıvan Muxtar Respublikasının tərəqqisini geostrateji, milli məqsəd hesab edən Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində Naxçıvan MSSR sənaye, kənd təsərrüfatı və sosial sahənin inkişafında, infrastrukturun genişləndirilməsində mühüm nailiyyətlər əldə etdi, yeni təsərrüfat sahələri yaratdı, mədəniyyət, elm və təhsili yüksək inkişaf səviyyəsinə çatdırdı. Lakin Heydər Əliyev istefaya getdikdən sonra Azərbaycanın yeni iqtidarları sələflərinin bu bölgəyə münasibətdə yeritdiyi "siyasi ənənə"ni bərpa edərək muxtar respublikanı yenidən taleyin ümidinə buraxdılar. Lakin Heydər Əliyevin siyasi dühası yenidən Naxçıvanı fəlakətlərdən xilas etdi, bu qədim diyarı sabitliyə və tərəqqiyə qovuşdurdu.

Dördüncüsü, Heydər Əliyev Naxçıvanın milli dövlətçilik tarixində yerini və rolunu həmişə yüksək qiymətləndirir, naxçıvanlılarda həmişə milli qürurun, milli istiqlaliyyət ruhunun, müstəqilliyə bağlılığın, azərbaycançılığın möhkəm olduğunu qeyd edirdi.

Heydər Əliyevin siyasi fəaliyyətinin mühüm dövrlərindən biri olan 1990-1993-cü illər də bilavasitə Naxçıvanla əlaqədardır. Taleyin hökmü ilə muxtar respublika üçün çox mürəkkəb bir dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməli olan Heydər Əliyev bu torpaqda bütövlükdə Azərbaycan üçün taleyüklü qərarlara imza atdı, müstəqil dövlətçiliyin konseptual istiqamətlərini müəyyənləşdirdi. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Naxçıvan torpağını erməni təcavüzündən xilas etməsi oldu. Onun, bölgənin və əhalisinin təhlükəsizliyinin təmin edilməsi, hərbi müdafiə sahəsində atdığı addımlar, rus qoşunlarının bölgədən qansız-qadasız çıxarılması və bu zaman bütün silah-sursatın Azərbaycanda qalması dünya hərbi diplomatiya sənətinin ən böyük hadisələrindən biri hesab edilməlidir.

Naxçıvan MR-in bugünkü uğurlarının əsası məhz Heydər Əliyevin MR-ə rəhbərlik etdiyi 1991-1993-cü illərdə qoyuldu. Heydər Əliyev sonralar bu dövrü nəzərdə tutaraq həmin illərin onun üçün əziz, çox şərəfli illər olduğunu, bu torpağa daha da yaxından bağlandığını etiraf etmişdi.

Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsi istiqamətində də cahanşümul işlər görmüşdü. Onun təşəbbüsü ilə hələ 1974-cü ildə Naxçıvan MR-in 50 illiyi ittifaq səviyyəsində geniş qeyd olunmuşdu. 1990-1993-cü illərdə Naxçıvan bölgəsinin muxtariyyət statusunun beynəlxalq müqavilələrlə təsbit olunduğunu bütün dünyaya bəyan edərək erməni təcavüzünün qarşısını qətiyyətlə almışdı. Azərbaycanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyası ilə Naxçıvan MR-in statusu əbədi müəyyənləşdirilmişdir. Heydər Əliyevin 4 fevral 1999-cu il tarixli fərmanı ilə Naxçıvan MR-in 75 illiyi ölkəmizdə geniş şəkildə qeyd edilmişdi.

Respublikaya ikinci dəfə rəhbərlik etdiyi 1993-2003-cü illərdə Heydər Əliyevin dövlətçilik strategiyasının mühüm istiqaməti Azərbaycanın bütün regionlarının bərabər inkişafı məsələsini təşkil edirdi. Həmin illərdə Naxçıvan MR öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, ictimai həyatın bütün sahələrində çox ciddi uğurlara imza atmışdır.

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş genişmiqyaslı islahatlar qısa zamanda bütün Azərbaycanda olduğu kimi, muxtar respublikada da öz bəhrəsini vermiş, 1997-ci ildən başlayaraq mövcud geriləmənin qarşısı alınmış, iqtisadi inkişafın əsası qoyulmuşdur. Həyata keçirilmiş struktur dəyişiklikləri, özəlləşdirmə və digər iqtisadi tədbirlər, bazar mexanizmlərinin 2000-ci ildə 2,4 dəfə, o cümlədən sənaye məhsulu istehsalı 1,7 dəfə, tikintidə əsas kapital qoyuluşu 5 dəfə artmış, sənayedə yaranmış durğunluq aradan qaldırılmış, 15 adda yeni məhsul istehsalına başlanmışdır. Muxtar respublikada aqrar islahatlar da öz bəhrəsini vermiş, kənd təsərrüfatı məhsullarının istehsal həcmi 2,3 dəfə artmışdır. 1995-2000-ci illərdə əldə olunmuş nailiyyətlər sonrakı dövrlərdə də davam etdirilmiş, sosial-iqtisadi inkişafın dinamikliyi təmin edilmişdir.

Heydər Əliyevin siyasi kursu, müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə həyata keçirilir. Ölkə Prezidenti İlham Əliyev Naxçıvan MR-in sosial-iqtisadi və mədəni inkişaf məsələlərinə daim diqqət yetirir. Prezidentliyi dövründə o, muxtar respublikada dəfələrlə olmuş, hər səfərində yeni istehsal və sosial obyektlərin açılış mərasimlərində iştirak etmiş, bütün sahələrdə həyata keçirilən tədbirlərlə yerində tanış olmuş, muxtar respublikanın sosial-iqtisadi inkişafının daha da sürətlənməsi üçün dəyərli tövsiyə və tapşırıqlarını vermişdir.

***Ədalət QASIMOV,***
***AMEA Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin müdiri, tarix elmləri doktoru***

## Ən böyük azərbaycanlı

**Heydər Əliyevin adı Azərbaycanın çoxəsrlik tarixinə azərbaycançılığın banisi və dövlətçiliyin yaradıcısı kimi qızıl hərflərlə yazılıb. Heydər Əliyevin adı 1969-cu il iyulun 14-dən rəhbərlik etməyə başladığı Azərbaycanın əldə etdiyi bütün sosial, iqtisadi və siyasi uğurlarla birgə çəkilir... Bu məsələyə daha geniş kontekstdən yanaşsaq, əmin olarıq ki, Heydər Əliyev Azərbaycan xalqının 40 ilə yaxın dövrü əhatə edən tarixinin simvoludur.**

Bəs təkcə Azərbaycan xalqınınmı? Heydər Əliyev şəxsiyyəti, xarizması, təsir gücü, aurası Azərbaycanın sərhədləri ilə məhdudlaşırmı? Onun çoxşaxəli fəaliyyətinə nəzər yetirsək, bu suallara qətiyyətlə "yox" deyərik. Heydər Əliyev dünya miqyasında qlobal işlərə, ideyalara, layihələrə imza atmış böyük şəxsiyyətdir. O, SSRİ-nin ən yüksək çəkili siyasətçisi olmuşdur.

Heydər Əliyev SSRİ kimi nəhəng bir ölkənin çox mühüm strateji sahələrinə rəhbərlik etmişdi. Buraya sosialist düşərgəsi ölkələri ilə əlaqələr, Yaxın Şərq problemlərinin həlli məsələləri, Uzaq Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya, Latın Amerikası ölkələri ilə xarici siyasət əlaqələri kimi geniş spektrli problemlərin idarə edilməsi, ağır və yüngül sənaye, dəmir yolu, nəqliyyat, tikinti, səhiyyə, təhsil, gənclərlə iş kimi mühüm sosial-iqtisadi sahələrin bilavasitə nəzarəti və idarə edilməsi problemləri daxil idi.

Bəzən tədqiqatçılar belə bir suala cavab axtarırlar: müstəqillik elan olunana qədər Heydər Əliyevin fəaliyyəti Azərbaycana və azərbaycanlılara nə verdi? Cavab sadədir: Heydər Əliyev Azərbaycana və azərbaycanlılara o zaman gözləniləndən daha çoxunu verdi.

Heydər Əliyev 1982-ci il noyabrın 22-də Siyasi Büronun üzvü seçilənədək, həmin il noyabrın 24-də isə Nazirlər Soveti sədrinin birinci müavini təyin olunana qədər Azərbaycan SSR-ə 14 ilə yaxın rəhbərlik etmişdir. Bu illər ərzində Azərbaycan çox sürətlə inkişaf etdi və SSRİ-nin heç bir subsidiya almayan ilk respublikasına çevrildi. Məhz onun titanik əməyi, qeyri-adi bacarığı, lider və təşkilatçılıq istedadı sayəsində Azərbaycan keçmiş SSRİ-nin ən nüfuzlu subyektinə çevrilmişdir.

Ulu Öndər Azərbaycan SSR-in rəhbəri kimi milli kadrların hazırlanmasına böyük diqqət yetirirdi. Məhz onun təşəbbüsü ilə azərbaycanlı gənclər SSRİ-nin ən məşhur ali təhsil ocaqlarına oxumağa gedirdilər. Moskva, Leninqrad, Kiyev və Minskdəki ali təhsil ocaqlarında Azərbaycanın gələcəyi naminə çox nadir ixtisaslar üzrə milli kadrların hazırlanması Heydər Əliyevin şəxsi xidmətləri idi. 1969-1982-ci illərdə on mindən çox azərbaycanlı bu universitetlərdə müəyyən edilmiş kvotadan kənar təhsil alırdı. 1978-ci il iyunun 21-də Azərbaycan KP MK-də keçirilən müşavirədə qəbul edilmiş qərarla 760 nəfərdən çox adam Azərbaycanın xalq təsərrüfatı üçün vacib olan 244 ixtisas üzrə təhsil almaq üçün müsabiqədənkənar qəbul qaydası ilə Moskva, Leninqrad və digər şəhərlərin ali məktəblərinə göndərilmişdir. Onlar vətənə qayıdandan sonra Azərbaycanın inkişafı üçün çox işlər görmüş və indi də görürlər. Onlar Rusiya, Ukrayna, Belarus və digər ölkələrdə Azərbaycan diasporunun fəal üzvləridirlər. Heydər Əliyev bu gənclərin Azərbaycanın gələcəyi olduğuna inanırdı və onların təhsili, məişət problemləri ilə şəxsən maraqlanırdı.

Hər kəsə məlumdur ki, Azərbaycanın İkinci Dünya müharibəsindəki rolu öz layiqli qiymətini almayıb. Heydər Əliyev bu istiqamətdə bir sıra qətiyyətli addımlar atmağa və bunda Azərbaycanın böyük rolunun tarixə yazılmasına nail oldu. 1980-ci ildə Taqanroq şəhərində 416-cı Taqanroq diviziyasına xatirə abidəsi ucaldıldı. Təbii ki, Heydər Əliyevin təşəbbüsü və qətiyyəti sayəsində. O, bu abidənin açılışında şəxsən iştirak etdi. Bununla da o, lazımi qüvvələrə müvafiq mesajlarını verdi.

Heydər Əliyev SSRİ Ali Sovetinin Azərbaycandan seçilmiş deputatlarının sayına və səviyyəsinə də böyük diqqət yetirirdi. O, Azərbaycanın böyük deputat korpusu ilə təmsil olunmasını təmin etmişdi. O, deputatların tərkibinin keyfiyyətcə yüksəldilməsinə də böyük önəm verirdi. Bu, ona gətirib çıxardı ki, azərbaycanlılar SSRİ-də böyük hörmət qazanmağa başladılar, xalqımızın real gücünü və potensialını üzə çıxardılar. Bütün bunlar Heydər Əliyev dühasının və qətiyyətinin nəticəsi idi.

SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsini daşıyarkən Heydər Əliyev 12 nazirliyə və onlarca qurumlara, o cümlədən maşınqayırma, tikinti, nəqliyyat, təhsil, səhiyyə, ticarət, yüngül sənaye kimi mühüm sahələrə rəhbərlik etmişdir. Onun Moskvadakı beşillik fəaliyyəti o qədər geniş və çoxşaxəlidir ki, bu, çoxlu dissertasiya və elmi tədqiqatların mövzusudur.

Heydər Əliyev sözün əsl mənasında bütün sovet vətəndaşlarının həyatına daxil olmuşdu. Odur ki, onların yaddaşında sovet dövrünün ən enerjili və qətiyyətli rəhbərlərindən biri kimi qaldı. Heydər Əliyev Yaponiya, Vyetnam, Hindistan, Anqola, Meksika, Efiopiya, Yəmən, Macarıstan, Nikaraqua, Laos, Kuba, Yuqoslaviya, Şərqi Almaniya, Polşa və Bolqarıstanın rəhbərləri ilə görüşəndə, xaricdə danışıqlar aparanda, Moskvada gəncliyin, sovet xalqının problemlərinə dair çıxış edəndə (31 yanvar 1985-ci il) qarşısındakılar təəccüblənirdilər: diplomatdır, yoxsa sosioloq? Onun SSRİ-də təhsil islahatı ilə bağlı çıxışını (11-12 aprel 1984-cü il) diqqətlə dinləyənlər yəqin ki, onu pedaqogika sahəsinin professoru da hesab edirdilər.

Heydər Əliyev səhiyyənin vəziyyəti, onun inkişaf perspektivləri haqqında nitq söyləyəndə hamı onun tibb üzrə mütəxəssis olduğunu düşünürdü. O, 1984-cü ilin iyununda Baykal-Amur Magistralına, 1985-ci ilin noyabrında isə Kurqan səfərindən sonra çıxış edəndə onu dinləyənlər bu böyük şəxsiyyətin ya mühəndis, ya nəqliyyat işçisi, ya da dəmiryolçu olduğunu düşünürdülər.

Bir sözlə, Heydər Əliyev öz məharəti, dərin biliyi, zəkası, iti yaddaşı, qeyri-adi istedadı, dəmir məntiqi, yenilməz iradəsi ilə bütün sovet xalqının sevimlisinə, kumirinə və əsl liderinə çevrilmişdi. Heydər Əliyev Altay diyarından RSFSR Ali Sovetinə deputat seçilmişdi. Bu, Heydər Əliyevə ümumbəşəri məhəbbətin ifadəsi idi. Onun Barnaulda seçicilərlə görüşünü indi də xalq xatırlayır. Heydər Əliyev ona görə sevilirdi ki, o, özü də sadə xalqı, onun dəyərlərini sevirdi, bütün qəlbi ilə Azərbaycana bağlı idi.

Yəqin ki, yaşlı nəsil 20 Yanvar hadisələri ilə əlaqədar Heydər Əliyevin Sov.İKP üzvlüyündən çıxması barədə bəyanatını yaxşı xatırlayır. Bəli, Heydər Əliyev 1945-ci ildən üzvü olduğu, 46 il xalqa, Vətənə xidmət etdiyi partiyadan istefa verdi. Hər şeydən qorxan, mövqeyini gizlədən çoxlarından fərqli olaraq Heydər Əliyev bu addımı atdı və yenə də Azərbaycan adına, xalqını sevdiyinə görə etdi.

Ötən əsrin 80-ci illərində "Literaturnaya qazeta"nın müxbirinin suallarını cavablandırarkən Heydər Əliyev bunları qeyd etmişdi: "Əksər hallarda prinsipial, vicdanlı kadrlar irəli çəkilə bilmirdilər. Ayrı-ayrı universitet professorları və rəhbər işçiləri övladlarını "valideyn" ixtisasları üzrə ali məktəblərə yerləşdirmək istəyəndə belə bir hadisə ilə də rastlaşdıq. Biz bu cür hərəkətləri məhdudlaşdırmalı olduq, lakin dövlət universitetinin hüquq fakültəsinə inzibati orqanlarda çalışan işçilərin uşaqlarının qəbulu tamamilə qadağan edildi. Öz övladlarını, nəvələrini, qohumlarını kafedrasında, laboratoriyasında, institutunda yerləşdirən, onlara dissertasiyalar hazırlamağa, elmi pillәkənləri irəliləməyə güzəştli şərait yaradan professorları, hətta akademikləri necə ziyalı adlandırmaq olar? Hüquq fakültəsinə gəlincə, burada da qərarımız qeyri-sağlam tendensiya ilə bağlı idi. Müəyyən etdik ki, bu fakültədə təhsil alan tələbələrin böyük əksəriyyəti polis, prokuror, məhkəmə, hüquq idarələrində, partiya və sovet orqanlarında işləyənlərin övladlarıdır. Bizi mövcud vəziyyət, bir çox hallarda sui-istifadə halları, ən çox da zərərli nəticələr, inzibati orqanlarda hansısa qohumbazlığın və "irsiyyət"in yaranması təhlükəsi narahat edirdi".

Hələ bu müsahibədən xeyli əvvəl, 1978-ci il iyunun 21-də Azərbaycan KP MK-də keçirilən müşavirədə Heydər Əliyev artıq bu məsələnin bünövrəsini qoymuşdu ("Kommunist" qəzeti, 23 iyun 1978-ci il). O, öz çıxışında qeyd etmişdi ki, qəbul imtahanlarında gərək maksimum obyektivlik təmin edilsin, abituriyentlərə əlverişli şərait yaradılsın. Axı müsabiqə yolu ilə tələbə seçmək çətin, ciddi sınaqdır. Buna görə də hər bir oğlan və qıza maksimum diqqət və xeyirxahlıqla yanaşılmalıdır.

O dövrdə "Qoy ədalət zəfər çalsın!" şüarı respublikanın bütün ərazisində geniş əks-sədaya səbəb olmuşdu. Açığı desək, bir çoxumuz bu mübarizənin effektiv olacağına o qədər də inanmırdıq, çünki nəqliyyat müəssisəsində işləyə-işləyə, gecə-gündüz imtahanlara hazırlaşaraq dəfələrlə S.M.Kirov adına Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin əyani, qiyabi şöbələrinə sənəd vermişdim, gah "bal"ım çatmırdı, gah da müxtəlif bəhanələr gətirilərək konkursa düşürdüm. Heydər Əliyevin bu çıxışı mənim kimi yüzlərlə gəncin uzun müddət ürəyində qalmış arzularını reallığa çevirdi. Nəhayət ki, 1978-ci ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin əyani şöbəsinə qəbul oldum. Bu, mənim kimi fəhlə balaları üçün əlçatmaz arzu idi. Mənə yaxın olan insanlar, dostlar, qohumlar zarafatla inqilabi nailiyyət əldə, etməyimlə fəxr edirdilər, daha doğrusu, qəbul olmağıma şübhə ilə yanaşırdılar. Əslində, bu, Heydər Əliyevin mənə bəxş etdiyi bir hədiyyə idi. Mən bu dahi insanın qayğısını öz üzərimdə hiss etdim və buna görə onun ruhuna ömrümün axırına kimi minnətdaram.

Bu fikirlərim də Ulu Öndərimizə - XX əsrin ən böyük azərbaycanlısına böyük məhəbbətlə yazılmışdır. Məqsədim Heydər Əliyev fenomeninin bəzi xüsusiyyətlərini diqqətə çatdırmaq, Ulu Öndərin şəxsiyyətinin müəyyən zaman və məkana sığmadığını göstərmək istəyindən irəli gəlir.

***Eldar ƏSGƏROV***

# Bir yumruq, bir ürək, bir can



# Dar gündə də, xoş gündə də bir yerdəyik

## Ölkəmizin bütün bölgələrində qardaş ölkəyə yardım üçün insanlar səfərbər olub

*Əvvəli 1-ci səh.*

### Heydər Əliyev Fondunun yardımları davam edir

Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələdən zərərçəkmişlərə dəstək məqsədilə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fond tərəfindən humanitar yardımlar davam etdirilir.

Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə yardım göstərilməsi məqsədilə Azərbaycan vətəndaşlarına çağırışına qoşulan Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi də fevralın 8-dən humanitar kampaniyaya start verib. Bu kampaniya çərçivəsində vətəndaşlardan toplanan humanitar yardımlar da Heydər Əliyev Fondunun dəstəyi ilə zəlzələ bölgəsinə çatdırılır.

Fevralın 10-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Türkiyədəki zəlzələdən zərərçəkənlərə humanitar yardımla bağlı paylaşım edib.

Mehriban xanım Əliyeva paylaşımında bildirib ki, hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir: "Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur".



### Türkiyəyə yardım üçün Azərbaycan heç zaman təklif gözləməyib

Hələ 1999-cu ildə Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı, 2000-ci ilin əvvəllərində baş verən meşə yanğınları zamanı da qardaş xalqa ilk yardım əlini uzadan məhz Azərbaycan dövləti olub. Dövlətimiz heç bir təklif gözləmədən qardaş ölkənin köməyinə yetişib.

Məlum olduğu kimi, 2021-ci ilin yay aylarında Türkiyədə geniş meşə yanğınları baş vermiş və xeyli fəsadlara səbəb olmuşdu. Azərbaycan xalqının üzüntüsünə səbəb olan həmin çətin anlarda dövlətimiz maddi və mənəvi dəstəyi ilə Türkiyənin yanında olmuş, son ana qədər yardımını əsirgəməmişdi.

Həmçinin ölkəmiz ötən ilin yay aylarında Türkiyənin Muğla bölgəsində baş verən meşə yanğınları zamanı yaşanan fəlakətin qarşısını almaq üçün qardaş ölkəyə yardım etmişdi.

Azərbaycanın qardaş Türkiyəyə dayaq durması təkcə yaxın tariximizdə deyil, uzaq keçmişimizdə də yaşanıb. O da təsadüfi deyildi ki, Çanaqqala savaşından sonra, XX əsrin əvvəllərində Türkiyənin ağır iqtisadi böhran yaşadığı bir zamanda Mustafa Kamal Paşa kömək üçün üzünü məhz Azərbaycana tutmuşdu...

Türkiyə tarixinin ən çətin sınaqlardan keçdiyi həmin dönəmdə də Azərbaycan hər cür maddi yardımı ilə qardaşının imdadına yetişmişdi.

Gətirdiyimiz bu bir neçə nümunədən də xalqlarımız arasındakı qardaşlığın hansı yüksək səviyyədə olduğu bariz şəkildə gözlər önünə sərilir.

Azərbaycanın da ən çətin anlarında qardaş Türkiyə hər zaman yanımızda, bizimlə çiyin-çiyinə olub. Eləcə də Vətən müharibəsində qardaş ölkənin yaxından dəstəyini hiss etməyimiz bizə ruh, güc verib.

Əminik ki, bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə qardaşlıq və həmrəyliyinin gücü ilə bütün çətinliklərdən qalib çıxacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Mehriban Əliyevanın göstərişi ilə daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb

*Əvvəli 1-ci səh.*








Heydər Əliyev Fondunun nümayəndəsi Aydan Məhərrəmli hava limanında jurnalistlərə müsahibəsində deyib ki, Heydər Əliyev Fondu, "AzərEnerji" ASC və "Azərişıq" ASC-nin dəstəyi ilə göndərilən yardım fevralın 11-də zəlzələ bölgəsinə çatdırılıb. Türkiyədə havanın çox soyuq olduğunu və buna görə insanların qızdırıcı cihazlara ehtiyacı yarandığını nəzərə alaraq, budəfəki humanitar yardımda içərisində qızdırıcı olan çadırlar, istilik radiatorları, generatorlar da göndərilib. Xilasetmə işlərinə dəstək olmaq məqsədilə digər zəruri avadanlıqlar da göndərilən yardıma daxildir.

Xatırladaq ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-da Türkiyəyə Heydər Əliyev Fondunun ilk humanitar yardım təyyarəsi göndərilib. Fondun qardaş ölkəyə ezam olunan əməkdaşları zəlzələdən zərərçəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər çatdırıblar.

Həmçinin qeyd edək ki, Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə yardım göstərilməsi məqsədilə Azərbaycan vətəndaşlarına çağırışına qoşulan Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi fevralın 8-dən humanitar kampaniyaya start verib. Bu kampaniya çərçivəsində vətəndaşlardan toplanan humanitar yardımlar da Heydər Əliyev Fondunun dəstəyi ilə zəlzələ bölgəsinə çatdırılır.

***AZƏRTAC***

# FHN-in növbəti humanitar yardımı Türkiyəyə yola salınıb

**Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin növbəti humanitar yardımı qardaş ölkəyə yola salınıb.**




FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təyyarə ilə yola salınan humanitar yardıma zəlzələdən ziyançəkmiş insanların yerləşdirilməsi üçün 240 ədəd çadır daxildir.

Humanitar yardımı aparan təyyarə Heydər Əliyev Beynəlxalq Aeroportundan Türkiyənin Adana şəhərinə istiqamət alıb.

# Hərbi həkimlərimiz 8 cərrahi əməliyyatı uğurla icra edib, zərərçəkmiş 62 nəfərə ambulator yardım göstəriblər







*Əvvəli 1-ci səh.*

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə koordinasiyalı şəkildə hərbi həkimlərimiz növbəti 8 cərrahi əməliyyatı uğurla icra edib, zərərçəkmiş 62 nəfərə ambulator yardım göstəriblər.

Ümumilikdə Azərbaycan Ordusunun təcrübəli tibb personalı tərəfindən 25 cərrahi əməliyyat icra olunub, baş vermiş zəlzələdən zərərçəkən 196 nəfər isə müayinə edilib və onlara ambulator yardım göstərilib. Zəlzələdə xəsarət alan insanlara tibbi yardımın göstərilməsi, onların tezliklə sağalaraq normal həyata qayıtması üçün hərbi tibb personalımız qardaş ölkədə yüksək peşəkarlıqla fəaliyyətini davam etdirir.

# FHN-in ikinci mobil səyyar hospitalı Kahramanmaraşa yola salınır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarını aradan qaldırmaq məqsədilə humanitar yardımlar davam edir. Heydər Əliyev Fondu tərəfindən Türkiyədə zəlzələdən zərər çəkmiş insanlara böyük həcmdə humanitar yardım göndərilib.**




Bu sözləri AZƏRTAC-a müsahibəsində Fövqəladə Hallar Nazirliyinin (FHN) nümayəndəsi Ərəstun Əliyev deyib.

"Nazirlik də ölkə başçısının tapşırığına uyğun olaraq faciənin ilk günündən axtarış-xilasetmə dəstələri, xilasetmə avadanlıqları, əhalinin yerləşdirilməsi üçün çadırlar, qızdırıcılar və digər zəruri avadanlıqları göndərib. Bundan başqa, 41 nəfərdən ibarət tibb heyəti və bir ədəd mobil səyyar hospitalı Kahramanmaraşda açılıb və fəaliyyətini davam etdirir.

Bu gün isə ikinci mobil səyyar hospitalı yola salınır. Hospitalda qəbul çeşidləmə, sarğı, laboratoriya, reanimasiya və iki əməliyyat bloku fəaliyyət göstərəcək. 18 nəfərlik tibb personalı, hərbi səhra şəraitində fəaliyyət göstərən peşəkar cərrahlardan, travmatoloqlardan, reanimotoloqlardan, tarrokal cərrahlardan ibarətdir. Hospital hər cür tibbi avadanlıqla, dərman preparatları, sarğı materialları və reaktivlərlə təmin olunub", - deyə Ə.Əliyev qeyd edib.

# Qardaş Türkiyəyə qış səhra çadırları göndərilib



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə Müdafiə Nazirliyinin yardım tədbirləri davam etdirilir.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, Müdafiə Nazirliyinin Maddi Texniki Təminat Baş İdarəsinin təminat bazasından qış səhra çadırlarının bir hissəsi avtomobil, digərləri isə hava nəqliyyatı vasitəsilə qardaş ölkəyə göndərilib.

# DSX-nin Türkiyəyə növbəti yardımı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə Dövlət Sərhəd Xidməti növbəti humanitar yardımı qardaş ölkəyə yola salıb.

AZƏRTAC-a bu barədə DSX-nin Mətbuat mərkəzindən məlumat verilib.

Bildirilib ki, DSX-yə məxsus 2 TIR vasitəsilə zəlzələdən zərərçəkmişlər üçün yola salınan növbəti humanitar yardıma xüsusi hərbi qış çadırı, yarımyun adyal, yataq kisəsi (qış şəraiti üçün), yarımyun corab, yarımyun əlcək, yarımyun köynək, qış termal alt paltarı, odun sobası (bütün ləvazimatları ilə), içməli "Sərhədçi" suyu (5 litrlik qablaşdırmalarda) daxildir.

Eyni zamanda zəlzələ zonasında fəaliyyət göstərən könüllülər üçün təyyarə ilə 25 nəfərlik xüsusi hərbi qış çadırı, yataq kisəsi (qış şəraiti üçün), yarımyun corab, yarımyun əlcək, qış termal alt paltarı, uzunboğaz çəkmə (botinka), bel kəməri, su qabı (qumquma), odun sobası (bütün ləvazimatları ilə), dərman (1 nəfər üçün ilkin tibbi yardım), quru ərzaq payı, konservləşdirilmiş qidalar göndərilib.

# FHN-in xilasediciləri 2 bacını və 50 yaşlı qadını xilas ediblər





**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, FHN-in xilasedicilərinin fədakarlığı və peşəkarlığı sayəsində zəlzələdən ciddi zərər görmüş Kahramanmaraşda xüsusilə mürəkkəb və riskli xilasetmə əməliyyatı nəticəsində dağıntılar altında 128 saat qalmış iki bacı - 8 yaşlı Tavilla və 13 yaşlı Xədicə, dağıntılar altında 120 saat qalmış Fatma adlı qadın xilas olunublar.

# Bìr yumruq, bìr ürək, bìr can



## Qardaş ölkəyə dəstək mənəvi borcumuzdur

### Türkiyəyə qardaş yardımları davam edir

*Əvvəli 1-ci səh.*



Azərbaycanın Türkiyəyə dəstəyindən danışan Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, qardaş ölkədə baş vermiş güclü zəlzələlər nəticəsində çox sayda insanın həlak olması bəşər tarixinin ən dəhşətli səhifələrindən biridir.

Deputat qeyd edib ki, bu fəlakət eyni zamanda Azərbaycanda xalq-dövlət birliyinin əsl mahiyyətini bir daha üzə çıxardı: "Biz dövlətin prioritetlərinin həm də xalqın prioriteti olduğunu əməli şəkildə müşahidə etdik. Zəlzələ və çoxsaylı insan itkisi bizi sarsıtsa da, Azərbaycan və Türkiyə daha çox bir-birinə yaxın oldu, birləşdi. Hərbi gücümüzlə bərabər, inam və iman gücümüzün də "dəmir yumruğ"a döndüyünün şahidi olduq".

Bəhruz Məhərrəmov faciənin ilk saatlarından Azərbaycanın aidiyyəti dövlət strukturlarının səfərbər edildiyini, Türkiyəyə tam təchizatla birlikdə həkimlər, xilasedicilər, könüllülər göndərildiyini və hazırda bu prosesin dövlət qurumları ilə yanaşı, Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən davam etdirildiyini xatırlatdı.

"Azərbaycanın bu cür ürək yanğısı ilə davranışı heç kim üçün gözlənilməz olmadı, çünki biz həmişə Türkiyənin maraqlarına öz milli maraqlarımız kimi sahib çıxmışıq. Cənab İlham Əliyev dəfələrlə beynəlxalq tədbirlərdə "Türkiyə burada yoxdursa, biz varıq" deməklə Ankaranın mənafelərini ən ali formada müdafiə edib. Bu mənada dar günündə Türkiyənin yardımına tələsən ilk liderin cənab İlham Əliyev, ilk dövlətin isə Azərbaycan olmasından təbii heç nə ola bilməz. Dəhşətli faciə ilə əlaqədar Prezident İlham Əliyevin qardaş dövlətin ölkəmizdəki səfirliyində başsağlığı sözləri Azərbaycan-Türkiyə münasibətlərinin real mənzərəsinin ən gözəl ifadəsi idi. Dövlət başçısı bəyan etdi ki, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Həqiqətən də, dövlət başçısının rəhbərliyi altında xalqımız bu çətin günlərdə göstərdi ki, Azərbaycan və Türkiyənin "Bir millət, iki dövlət" prinsipi yalnız sözdən ibarət deyil. Bu qardaşlığın təməlində milli ruh, vahid məfkurə, ortaq dil, tarixi keçmiş və qarşılıqlı dövlət maraqlarımız dayanır", - deyə B.Məhərrəmov vurğulayıb.

Deputat qeyd edib ki, bu gun xalqımız 44 günlük savaş dönəmində olduğu kimi, uşaqdan böyüyə səfərbər olub. Cənab Prezidentin də Türkiyə səfirliyində böyük qürurla ifadə etdiyi kimi: "Azərbaycan xalqı könüllü olaraq öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Yəni kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir".

Deputat qeyd edib ki, bir əsr əvvəl Sarıqamışda, Çanaqqalada, Qurtuluş savaşında, Bakının azad olunması uğrunda döyüşlərdə, iki il öncə isə Vətən müharibəsində qardaşlıq dastanı yazmışıq. İndi də həmin ruhla bu dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında birgə səy göstəririk və bu, Azərbaycanı Türkiyə ilə daha da yaxınlaşdırır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



## Düşməni birlikdə dəf etdiyimiz kimi, dərdi də birlikdə yenəcəyik

### Ölkəmizdə yaşayan azsaylı xalqlar da zəlzələdən zərərçəkənlərə dəstək olurlar

**Türkiyədə çoxminli insan tələfatı ilə nəticələnən dəhşətli zəlzələ xəbəri təkcə azərbaycanlıları yox, Azərbaycanda yaşayan bütün azsaylı xalqları da sarsıtdı.**







44 günlük Vətən müharibəsində olduğu kimi, Azərbaycanda yaşayan xalqlar bir yumruq kimi birləşib qardaş olkəyə mənəvi dəstək olmağa, dərdini bölüşməyə hazır olduqlarını bildirdilər. Yəhudilər, tatlar, udilər, ləzgilər, talışlar, avarlar, bir sözlə, cəmi Azərbaycan ayağa qalxdı. Kimi Türkiyəyə yardım etmək üçün evindən yorğan-döşəyini gətirir, kimi isə təhnəsindəki son tikəsini də bölməyə hazır olduğunu bildirir.

Qısa zamanda təkcə Bakıda yox, rayonlarda da "Türkiyəyə yardım məntəqələri" fəaliyyətə başladı. İnsanlar imkanları çatanı etməyə, bu çətin günlərdə zəlzələdən ziyan çəkənlərin zəruri ehtiyaclarını ödəmək üçün lazım olan əşya və ərzaqları göndərmək üçün növbəyə düzüldülər. "Dost dar gündə sınanar" deyiblər. Türkiyədə baş verən dəhşətli zəlzələ Azərbaycanda yaşayan xalqların birliyini, dostluğunun sarsılmazlığını, vahid Azərbaycan ailəsinin monolitliyini bir daha göstərdi. Məscidlərdə, sinaqoqlarda, kilsələrdə zəlzələdə şəhid olanların ruhuna dualar oxundu, ehsanlar verildi. Redaksiyamızla əlaqə saxlayan Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev dedi ki, baş verən faciə türk xalqı ilə yanaşı, Azərbaycan xalqını da sarsıdıb. Çünki bu xalqlar Ulu Ondərin təbirincə desək, bir millət, iki dövlətdilər: "Bəşər tarixində Azərbaycan-Türkiyə dostluq, qardaşlıq nümunəsinə bənzər birlik nümunəsinə rast gəlmək mümkün deyil. Bu dostluğu həm də türk-yəhudi xalqlarının dostluğu hesab edirik. Azərbaycan bizim evimiz, vətənimizdir. Qoy bütün dünya bir daha bilsin ki, Vətənimizin, dövlətimizn dostları dostumuz, düşmənləri düşmənimizdir. Qardaş Türkiyədə baş verən faciə təkcə türklərin, azərbaycanlıların faciəsi yox, həm də biz yəhudilərin faciəsidir. Birliyimiz onu deməyə əsas verir ki, türk qardaşlarımız bu ağır günlərdə tək deyillər. Dərdləri dərdimiz, sevincləri sevincimizdir.



Azərbaycanda yaşayan yəhudi icması olaraq əlimizdən gələn maddi mənəvi köməyi əsirgəmirik. Bakı şəhərində, Qubada, Göyçayda yaşayan soydaşlarımız, iş adamları Azərbaycan ailəsinin bir üzvü kimi yardım kompaniyasına qoşulub bacardıqlarını edirlər. Cəmiyyət olaraq biz də gücümüz çatan maddi dəstəyi vermişik. Bu ağır günlərdə türk qardaşlarımızın dərdini bölüşür, inamla deyirəm ki, böyük türk xalqı tezliklə bu çətinliyi də dəf edərək toparlanıb ayağa qalxacaqdır".

Redaksiyaya gələn telefon zənglərinin ardı-arası kəsilmir. Bizimlə əlaqə saxlayanlardan Alban Udi Xristian İcmasının sədri Robert Mobili dedi ki, baş verən bu faciə təkcə Türkiyənin yox, bütün dünyanın faciəsi, acısıdır. Öncəliklə qeyd etməliyəm ki, bu xəbər bizi çox sarsıtdı: "Dərhal cəmiyyətimizin nümayəndələri kilsəyə toplaşıb dualar etdik, zəlzələdə şəhid olanlara Tanrıdan rəhmət, yaralananlara mərhəmət, türk xalqına səbr və dözüm arzu etdik.

Qeyd etməliyəm ki, zəlzələ baş verən yerlər bizim üçün çox doğma ərazilərdir. Biz ildə bir dəfə o tarixi yerlərə gedir, kilsələrdə olur, dini ayinlər həyata keçiririk. Türk xalqı ilə qardaşlığımızın tarixi elə bu torpaqların tarixinin yaşı qədər qədimdir. Türkiyə-Azərbaycan dostluğu deyəndə biz onu türk-udi dostluğu kimi qəbul edirik. Bu xalqların dini ayrı olsa da, Tanrısı birdir. Dərdi, kədəri də birdir. Sevincli günlərdə bir olduğumuz kimi, bir-birimizin dərdini də hər zaman bölməyə hazırıq. Biz belə qərara gəlmişik ki, mart ayında zəlzələ baş verən ərazilərə gedib insanlarla görüşək, dərdlərinə daha yaxından şərik olaq.

Qəbələ dağlıq rayondur. Bu dəqiqə bu dağlara qar yağıb. Gediş-gəliş çətinləşib. Amma buna baxmayaraq, xalqımız türk qardaşlarımıza mənəvi dayaq olmaq üçün bu qarlı günlərdə dağ yollarını aşaraq yardım etməyə tələsir. Gücümüz çatanı, əlimiz yetəni edirik.

Eyni zamanda mən Maraşda, Diyarbəkirdə, Hatayda olan dostlarımla əlaqə saxlayıb, bütün Azərbaycan xalqının ayaqda olduğunu bildirdim. Bu dərd Tanrıdan gələn bir bəladır. İnanıram ki, dostluğumuzun, birliyimizin gücü ilə bu bəlanı birlikdə aşacağıq".

Bizimlə əlaqə yaradanlar arasında Azərbaycan Tat Mədəniyyəti İctimai Birliyinin sədri Elman Əhmədov da var idi. O dedi:

- Türkiyə və Suriyada baş vermiş dəhşətli zəlzələ hamımızı sarsıtdı. Bu, hər zaman bir olan xalqlarımızın faciəsidir. Belə ağır gündə birliyimiz, dostluğumuz bütün maddi nemətlərdən dəyərlidir. Qeyd edim ki, Türkiyədə yaşayan, zəlzələdən zərərçəkən bacı və qardaşlarımızın həyatı bizə öz həyatımız kimi önəmlidir. İnanırıq ki, türk xalqı bu sınaqdan daha güclü çıxacaq. Allahdan bütün ölənlərə rəhmət və yaralılara tez sağalmasını diləyirik.

Dərd bölünəndə yüngülləşir. Bu fəlakətin aradan qaldırılması üçün hamımız bir nəfər kimi səfərbərik. Hər zaman olduğu kimi, qardaş türk xalqına əlimizdən gələn hər bir köməyi istər canımızla, istər malımızla etməyə hazırıq. Bakıda bir neçə yerdə yardım kampaniyası təşkil edilib. Hər gün minlərlə insan ora axışıb, yardım edir. Bu birlik, xalqlarımızın bir-birinə olan sevgisi bizi qürurlandırır. Yaxın zamanda birliyimizlə bu faciəni də dəf edəcəyik.

Hər gün səhərdən axşama kimi Azərbaycanın bütün ərazisində vətəndaşlarımız qardaş Türkiyəyə yardım etmək, mənəvi dayaq olmaq üçün məntəqələrə tələsirlər. Bəzən yardım etməyə imkanı olmayan bacı və qardaşlarımız isə öz duaları ilə türk qardaşlarımızın yanında olduqlarını göstərirlər. Allah dualarınızı qəbul etsin! Güc birlikdədir. Dərd də, düşmən də birlikdə yenilir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Çində yaşayan azərbaycanlılar Türkiyəyə yardım göndərib

**Azərbaycanda olduğu kimi, xaricdə yaşayan soydaşlarımız da Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar zərərçəkənlərə yardım kampaniyaları həyata keçirirlər.**

AZƏRTAC xəbər verir ki, Çində yaşayan və təhsil alan azərbaycanlılar bu ölkədəki Türkiyə vətəndaşları ilə birgə yardım kampaniyasına başlayıblar. Kampaniya çərçivəsində zəlzələ bölgəsində zərərçəkənlərin yerləşdirilməsi üçün ilkin mərhələdə çadırlar alınaraq Türkiyəyə yola salınıb. Növbəti mərhələdə digər lazımi əşyalar qardaş ölkəyə göndəriləcək.





## Sverdlovskda yaşayan azərbaycanlılar türk xalqının acılarına şərikdirlər

**Rusiyanın Sverdlovsk vilayətində yaşayan azərbaycanlılar Türkiyənin zəlzələdən ziyan çəkmiş bölgələrinə humanitar yardım göndəriblər.**

AZƏRTAC xəbər verir ki, Sverdlovsk vilayətinin Azərbaycan diasporunun nümayəndələri Türkiyənin Rusiyadakı səfirliyi vasitəsilə zəlzələdən zərərçəkənlərə ilk humanitar yardım maşınını yola salıblar. Humanitar yardımla dolu maşın Yekaterinburq şəhərindən Moskvaya yola düşüb. Sverdlovsk vilayəti azərbaycanlılarının topladıqları vəsait hesabına qardaş ölkəyə isti adyallar, yataq dəstləri, geyim və digər ləvazimatlar göndərilib.

Humanitar yardım avtomobilinin yola salınması mərasimində baş konsul vəzifələrini icra edən Şöhrət Mustafayev, "Azərbaycan-Ural" milli mədəni təşkilatının sədri Şahin Şıxlinski çıxış edərək türk xalqının acılarına şərik olduqlarını bildiriblər. Soydaşlarımız zəlzələdə həyatını itirənlərə Allahdan rəhmət, yaralılara şəfa, bütün türk xalqına səbir diləyiblər.




## Türkiyədəki Azərbaycan diaspor təşkilatları zəlzələdən zərərçəkənlərə kömək üçün səfərbər olunub

**Türkiyədə zəlzələ baş verən ilk gündən etibarən bu ölkədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları zərərçəkənlərə yardım kampaniyalarında fəal iştirak edirlər.**

AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) 9 min manat (100.000 TL) nağd vəsaiti zərərçəkənlərə yardım fonduna köçürüb.

Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu nəzdindəki Azərbaycan Evi Azərbaycandan, Türkiyədən və Avropa ölkələrindən toplanan 2 yük maşını humanitar yardımı zəlzələ bölgəsinə çatdırıb.

Ankarada fəaliyyət göstərən Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyi, "Azaflı" Hüquq və Konsaltinq şirkəti zəlzələ bölgəsinə 40 min manat (450.000 TL) dəyərində 1 TIR humanitar yardım və 6 çadır göndərib. Eyni zamanda 30 nəfərlik 3 könüllü axtarış-xilastemə qrupu yaradılıb. Bu qrup tərəfindən zəlzələ bölgəsindən 20 nəfər sağ çıxarılıb, 50-dən çox şəxsin isə meyiti tapılaraq aidiyyəti üzrə təhvil verilib.



İstanbulda azərbaycanlı Elşən Rəsulovun rəhbərlik etdiyi "ARS" və "Unixpadel" idman təsisatları və qurğuları şirkəti 153 min 500 manat (1.700.000 TL) dəyərində 3 TIR içməli suyu və 2 TIR humanitar yardımı zəlzələ bölgəsinə göndərib. Xilasetmə işlərində istifadə olunmaq üçün 3 ekskovator, 1 ədəd qreyder və 2 yükqaldırıcını icarəyə götürüb. Şirkətin Adıyamandakı fabrikində 500 nəfər zərərçəkənin yerləşdirilməsi təmin olunub.

Eskişehir Azərbaycanlılar Dərnəyi tərəfindən 2700 manat (30.000 TL) dəyərində uşaq bezləri, isti geyim, yataq, 40 cüt ayaqqabı, quru yeməklər, uşaq yeməkləri və uşaq paltarlarından ibarət mallar toplanaraq zəlzələ bölgəsinə yola salınıb.

Manisa Azərbaycan Kültür və Həmrəylik Dərnəyi zərərçəkənlərə yardım fonduna 270 manat (3.000 TL) köçürüb, zəlzələ bölgəsinə 5400 manat (60.000 TL) dəyərində humanitar yük göndərib.

İzmirdə fəaliyyət göstərən Çağdaş Azərbaycan Kültür Dərnəyi AFAD-ın hesabına 9000 manat (100.000 TL) vəsait köçürüb.

İğdır-Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyi Azərbaycan Kültür Evi zərərçəkənlərə yardım fonduna 900 manat (10.000 TL) vəsait köçürüb, zəlzələ bölgəsinə 27 min manat (300.000 TL) dəyərində 1000 ədəd adyal göndərib.

Hatay Azərbaycan Evi Osmaniyə şəhərində zəlzələdən zərər çəkmiş 5 azərbaycanlı ailəyə gündəlik zəruri ehtiyaclarının qarşılanması üçün humanitar yardım göndərib.

İstanbulda fəaliyyət göstərən İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyi zərərçəkənlərə yardım fonduna 1700 manat (1000.00 ABŞ dolları) vəsait köçürüb, 5100 manat (3000 ABŞ dolları) dəyərində isti geyim, ərzaq, gigiyenik vasitə və tibbi ləvazimatları zəlzələ bölgəsinə göndərib.

Ankarada fəaliyyət göstərən Təbriz Araşdırmaları İnstitutu, eləcə də Güney Azərbaycan və Qaşqay türkləri 1800 manat (20.000 TL) dəyərində ərzaq, isti geyim, dərman və tibbi ləvazimatları zəlzələnin episentri olan Kahramanmaraş vilayətinə yollayıb.

İğdır Vəqfi isə 2700 manat (30.000 TL) maddi vəsaiti AFAD-ın İğdır şöbəsinin bank hesabına köçürüb, 1000 ədəd palto və 1000 ədəd çəkmədən ibarət humanitar yardımı zəlzələ bölgəsinə göndərilmək üçün Ankara Böyükşəhər Bələdiyyəsinə təhvil verib.

Qeyd edək ki, bu rəqəmlər 6-10 fevral tarixlərini əhatə edir.

# Bütün bölgələrimiz qardaş ölkə üçün səfərbərdir

## Gəncədən Türkiyəyə 7 yük maşını humanitar yardım yola salınıb





**Qardaş Türkiyənin cənub-şərq bölgəsində baş verən zəlzələdən zərərçəkənlər üçün Azərbaycanın hər yerində olduğu kimi, Gəncədə və ətraf rayonlarda da yardımlar toplanır.**

Toplanmış yardım 7 yük maşını ilə Gəncədən Türkiyəyə yola salınmışdır. Yolasalma mərasimində Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Qeyd edək ki, göndərilən əşyalar əsasən qış geyimləri, istilik cihazıarı, yorğanlar, adyallar, uşaq bezləri və yeməkləri, konservləşdirilmiş qidalar, digər zəruri əşyalar olmuşdur.

Aksiya davam edir və növbəti yardım karvanının bu günlərdə yola salınması nəzərdə tutulur.

## Naftalanlılar qardaş Türkiyənin dərdinə şərikdirlər





**Türkiyənin Gəncədəki Baş Konsulluğunun önündə qardaş ölkədə baş vermiş güclü zəlzələ nəticəsində həlak olanların xatirəsinin ehtiramla yad edilməsi davam edir.**

Bu günlər Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov iki şəhid anası Zeynəb Bayramova ilə birgə Baş konsulluğun qarşısında yaradılan guşəni ziyarət etmiş, həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq önünə gül dəstələri düzmüş və konsulluqdakı başsağlığı kitabına ürək sözlərini yazmışdır.

Vüqar Novruzov Baş konsul Recep Öztopla görüşərək zəlzələ nəticəsində həlak olanların ailələrinə və yaxınlarına naftalanlılar adından dərin hüznlə başsağlığı vermiş, yaralananlara və xəsarət alanlara şəfa diləmişdir. Qeyd etmişdir ki, zəlzələdən zərərçəkənlər üçün Naftalan şəhərində də humanitar yardım toplanır və Gəncədə yaradılan məntəqəyə təhvil verilir.

## Tovuzluların yardımları arasında tibbi avadanlıqlar da var





**Türkiyədə baş verən güclü zəlzələ nəticəsində zərərçəkənlərə ölkəmizin hər yerində yardım toplanması davam edir. Tovuzlular da bu ağır günlərdə qardaş türk xalqının yanında olmağı özlərinin borcu hesab edir və zəlzələdən ziyançəkənlərə əllərindən gələn köməyi əsirgəmirlər.**

Rayon sakinləri faciə baş verən gündən isti geyimlər, yataq ləvazimatları, eləcə də konservləşdirilmiş qidalar alaraq məntəqələrə təhvil verirlər.

Humanitar yardımlar arasında zəlzələ zamanı xəsarət alanların müayinə və müalicəsində istifadə ediləcək tibbi avadanlıq və ləvazimatlar da az deyil. Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini Niftalı Qasımov: "Göndərdiyimiz tibbi avadanlıqlar arasında süni nəfər cihazları, kardio-monitor, göz müayinəsi üçün aparatlar və digər tibbi qurğular var. Allahdan bir daha Türkiyə xalqına səbr diləyirik. Biz hər zaman qardaşlarımızın yanındayıq".

Məntəqəyə çoxlu sayda könüllülər də gəliblər. Onlar gətirilən humanitar yardımları çeşidləyir, qablaşdırır, avtomobillərə yükləyirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Göygöl rayonu Türkiyəyə humanitar kömək göstərir




**Türkiyədə baş verən güclü zəlzələ nəticəsində zərərçəkənlərə Göygöl rayonundan da humanitar yardım göndərilib.**

AZƏRTAC xəbər verir ki, göndərilən humanitar yardımlar fevralın 11-də Gəncə şəhərində təyin olunmuş məntəqəyə təhvil verilib. Humanitar yardıma qida məhsulları, qış geyimləri, generatorlar, qızdırıcılar, çadır, ərzaq, dərman ləvazimatları və s. daxildir.

Qardaş Türkiyə Respublikasına yola salmaq üçün ölkəmizin bütün bölgələrindən humanitar yardımların göndərilməsi davam edir.

## Sumqayıtlılar yardım kampaniyasında fəal iştirak edirlər



**Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə ölkəmizdə həyata keçirilən humanitar yardım kampaniyası davam edir.**

Sumqayıtlılar da bu kampaniyada fəal iştirak edirlər. Şəhərin müxtəlif ərazilərində yardımların toplanması üçün xüsusi məntəqələr yaradılıb. Faciəni öz dərdi, öz acısı hesab edən sumqayıtlılar qardaş ölkədə zərərçəkənlərə dəstək olmaq üçün yardım məntəqələrinə axın edirlər.

Vətəndaşlar tərəfindən gətirilən yataq dəstləri, isti geyimlər, uşaq bezləri, təmizlik ləvazimatları, konservləşdirilmiş qidalar, quru ərzaqlar, tibbi ləvazimatlar, eləcə də digər zəruri yardımlar təyin olunmuş məntəqələrdə çeşidlənir və qablaşdırılır. Toplanan yardım tırlarla zəlzələ zonasına göndərilir.

Yardım kampaniyasında iştirak edənlər arasında şəhid ailələri, Qarabağ döyüşlərinin iştirakçıları, qazilər də var.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Balakən, Beyləqan və Zərdab rayonları yardım kampaniyasına qoşulublar





**Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində zərərçəkənlərə göstərilən humanitar yardım kampaniyasına Balakən, Beyləqan və Zərdab rayonları da qoşulublar.**

AZƏRTAC xəbər verir ki, fevralın 11-də rayon icra hakimiyyətləri tərəfindən göndərilən humanitar yardımlar Gəncə şəhərində təyin olunmuş məntəqəyə təhvil verilib. Beyləqan, Balakən və Zərdab rayonlarından göndərilən yardımlara generator, çarpayı, elektrik qızdırıcısı, fənər, yorğan-döşək, xalça, isti geyimlər və konservləşdirilmiş qida məhsulları daxildir.

Toplanan yardımlar könüllülər tərəfindən çeşidlənir, qablaşdırılır, avtomobillərə yüklənir və qardaş ölkəyə yola salınır.

## Cənub bölgəsi türk qardaşları ilə birgə olduqlarını nümayiş etdirir







**Türkiyədə baş verən güclü zəlzələ nəticəsində zərərçəkənlərə ölkəmizin hər yerində ümumxalq yardımı davam edir. Digər bölgələr kimi, Lənkəran, Astara, Masallı, Lerik və Yardımlı rayonları da bu yardım aksiyasına qoşulublar.**

AZƏRTAC xəbər verir ki, Lənkərandan ümumi dəyəri 50 min manat olan 15 ton düyü və 1 ton çay zəlzələdən zərərçəkmiş insanlara humanitar yardım məqsədilə Kahramanmaraş şəhərinə göndərilib. Masallı rayonunda da Türkiyədə baş verən dağıdıcı zəlzələdən zərər görmüş insanlara növbəti yardımların göndərilməsi davam etdirilir. Bu gün səhər saatlarında Masallı şəhərindən 187 min manat dəyərində olan müxtəlif ərzaq məhsulları, yataq dəstləri və digər zəruri ləvazimatların olduğu yardımlar qardaş ölkəyə göndərilib.

Astara, Lerik və Yardımlı rayonları da yardım kampaniyasına qoşulub. Müxtəlif adda ərzaq məhsullarından ibarət yük avtomobili Türkiyəyə yola salınıb.

Qeyd edək ki, dünən ümumilikdə cənub bölgəsindən yardım dolu 4 yük avtomobili qardaş ölkəyə göndərilib. Yardım kampaniyası qarşıdakı günlərdə də davam etdiriləcək.

## Füzuli və Ucar rayonlarından yardımlar davam edir





**Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində zərərçəkənlərə göstərilən humanitar yardım kampaniyasına Ucar və Füzuli rayonları da qoşulublar.**

AZƏRTAC xəbər verir ki, fevralın 11-də rayon icra hakimiyyətləri tərəfindən göndərilən humanitar yardımlar Gəncə şəhərində təyin olunmuş məntəqəyə təhvil verilib. Füzuli və Ucar rayonlarından Türkiyəyə generator, qızdırıcı, yorğan-döşək, adyal, gödəkçə, qış geyimi, çarpayı, fənər və konservləşdirilmiş qida məhsulları göndərilib. Toplanan yardımlar könüllülər tərəfindən çeşidlənir, qablaşdırılır, avtomobillərə yüklənir və qardaş ölkəyə yola salınır.

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Milli əzmkarlığın nümunəsi

**Rusiya sülhməramlılarının müvəqqəti nəzarət zonasındakı "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qeyri-qanuni istismarı əleyhinə ekofəallarımızın etiraz aksiyası artıq iki aydır ki, davam edir. Dinc formada keçirilən aksiyanın iştirakçıları sərvətlərimizin qanunsuz istismarının qarşısının alınması üçün Azərbaycan mütəxəssislərinin ərazidə monitorinq keçirmələrinə şərait yaradılmasını tələb edirlər.**





Aksiya iştirakçıları tərəfindən Rusiya sülhməramlılarına, Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus humanitar yüklərin daşınmasına, eləcə də dinc erməni əhalinin gediş-gəlişinə Azərbaycan tərəfdən heç bir problem yaradılmır. Sülhməramlı kontingent, eləcə də aksiyanı izləmək üçün əraziyə yollanan beynəlxalq media nümayəndələri də bunun şahidi olublar. Fədakar fəalların, əksəriyyəti gənclərdən ibarət olan könüllülərin bu mübarizəsi həm də milli həmrəyliyimizin təzahürüdür. Aksiya iştirakçıları tələblərimiz nəzərə alınana qədər etiraz səslərini ucaldacaqlarını bildirirlər.

### Tələblərimiz təmin edilənə qədər haqq yolundan dönməyəcəyik

Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, Azərbaycanın suveren ərazilərində faydalı qazıntı yataqlarımızın qanunsuz istismarı əleyhinə dekabrın 12-dən bəri başladılan aksiya qətiyyətlə davam edir: "Artıq iki aydır ki, Laçın yolunda ekoloqlar, vətəndaş cəmiyyəti üzvləri, gənc könüllülər etiraz səslərini ucaldırlar. İştirakçılar öz haqlı tələblərini səsləndirir, sərvətlərimizin mühafizəsi üçün ekoloqların monitorinqinə icazə verilməsini tələb edirlər. Aksiyada "Ekoloji terrora son", "Azərbaycan vahiddir, sərvətinə sahibdir", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır" kimi şüarlar səsləndirirlər. Sülhməramlı qüvvələr də aksiyanın gedişatına qarışmır və yaxşı başa düşürlər ki, azərbaycanlı fəallar Laçın yolunu blokadaya almayıblar, bu yol humanitar məqsədlər üçün açıqdır. Ermənilər dünyaya bəyan etsələr də ki, guya orada insan haqqları tapdanır, yalan və faydasızdır. Əraziyə gələn əcnəbi jurnalistlər də bildirirdilər ki, aksiya dinc ermənilər üçün problem yaratmır".

Deputat qeyd edib ki, fəallarımızın əzmkarlığı nəticəsində ərazidən silah-sursat daşınmasının qarşısı alınıb: "Bu aksiya müddətində atəşkəsə də riayət olunur. Üstəlik, həmin yataqlarda qanunsuz istismar dayandırılıb. Hesab edirəm ki, bu da bizim fəalların yorulmazlığı nəticəsində əldə olunub. Ermənistanın saxta iddiaları, bölgədəki vəziyyətə "humanitar fəlakət" donu geyindirmək cəhdləri isə heç bir nəticə hasil etməyəcək. Beynəlxalq aləm də şahiddir ki, Laçın yolu humanitar məqsədlər üçün açıqdır və aksiya legitimdir. Tələblərimiz təmin edilənə qədər Azərbaycan haqq yolundan dönməyəcək".

### Aksiyanın müsbət nəticə verdiyi göz önündədir

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Azərbaycanlı fəallar Laçın yolunda milli əzmkarlıq nümayiş etdirirlər: "Bunun nəticəsidir ki, qızıl və mis-molibden yataqlarında qeyri-qanuni istismar bir müddətdir ki dayandırılıb. Oradakı təbii sərvətlərimiz daha istismar edilərək Ermənistana daşınmır, Laçın yolu hərbi məqsədlər üçün istifadə edilmir. Bu, ümumilikdə Qarabağ və Şərqi Zəngəzurda vəziyyətin daha da yaxşılaşmasına şərait yaradıb. Hər kəs yaxşı başa düşür ki, Azərbaycanın mövqeyi prinsipialdır, Azərbaycan cəmiyyəti haqlı tələblərini səsləndirməkdən çəkinmir".

Deputat bildirib ki, aksiya yalnız həmin faydalı qazıntı yataqlarında Azərbaycan ekoloqlarının monitorinq keçirməsinə şərait yaradıldığı halda sonlandırıla bilər: "Ümumiyyətlə, separatçılar Azərbaycan ərazilərində törədilən bütün ekosidlərə son verməlidirlər. Əks halda Azərbaycanın reaksiyasının bundan da sərt olacağı şübhəsizdir. Ermənistan bu məqamı mütləq nəzərə almalıdır. Azərbaycan tələbləri yerinə yetirilənə qədər haqlı mübarizəsini davam etdirəcək, ekofəallar dinc aksiya keçirərək sərvətlərimizin mühafizəsini təmin edəcəklər. Azərbaycanlı mütəxəssislərin baxış keçirməsinə icazə verilənə qədər mövqeyimiz dəyişməyəcək. Ona görə də ermənilər bu məsələdə həssaslıq göstərməli, dezinformasiyalar yaymamalı, beynəlxalq ictimaiyyəti aldatmamalıdırlar. Bu aksiyanın artıq müəyyən nəticə verdiyi göz önündədir. Etiraz aksiyasının bir müddət sonra daha müsbət nəticələr verəcəyinə də inanırıq".




*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## *Laçın-Xankəndi yolu:* Aksiya ruh yüksəkliyi ilə keçir

**Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü ekofəalların, könüllü gənclərin Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası gecə saatlarında da ruh yüksəkliyi ilə davam edib.**




AZƏRTAC xəbər verir ki, havanın şaxtalı olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. Onlar ekoloji terrorun dayandırılması ilə bağlı Azərbaycan, ingilis və rus dillərində şüarlar səsləndirirlər.




## Avtomobillərin keçidi təmin edilib

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edirlər.

Fevralın 10-da Xankəndidən Laçına və əks istiqamətdə Rusiya sülhməramlılarına məxsus 26 təminat-təchizat və minik avtomobili maneəsiz keçib.

* * *

Azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası 62 gündür davam edir. Ərazi humanitar məqsədlər üçün açıqdır, sərbəst hərəkətə heç bir maneə yoxdur. Laçın-Xankəndi yolunda hər iki istiqamətə Rusiya sülhməramlılarına və Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus avtomobillər maneəsiz hərəkət edirlər.

Sülhməramlılara məxsus 1 minik, 5 təminat avtomobili Xankəndidən Laçın istiqamətinə maneəsiz keçib.

* * *

Laçın-Xankəndi yolunda təşkil olunan aksiyanın 62-ci günündə də Rusiya sülhməramlılarına məxsus avtomobillər aksiya ərazisindən maneəsiz keçirlər.

Sülhməramlılara məxsus 18 avtomobilin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib.

* * *

Ekoaksiyanın iştirakçıları fevralın 11-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus beş minik və bir yük avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

Bu, bir daha onu göstərir ki, aksiya ərazisində hərəkət sərbəstdir. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Qeyd edək ki, Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 62 gündür davam edir.

*AZƏRTAC*











## Ruben Vardanyana Azərbaycan dərsi

**Qarabağda heç bir ölkə Azərbaycanın razılığı olmadan hansısa layihəni həyata keçirə bilməz. Bunu Cənubi Qafqazda, eləcə də Qarabağda gözü olan "güc sahibləri" də, ermənilərdən alət kimi istifadə edənlər də, elə Qarabağda yaşayıb, xam xəyala düşüb separatçılıqla məşğul olanlar da nə qədər tez anlasalar, bir o qədər yaxşıdır...**



Heç kimə sirr deyil ki, rusiyalı milyarder Ruben Vardanyanın "xilaskar" obrazında qəfildən Qarabağda "zühur" etməsi təsadüfi deyildi. Onun "zühur"una kimi istər Ermənistanın bəzi dairələri, istərsə də qondarma separatçı rejimin təmsilçiləri Azərbaycanla danışıqlarda maraqlı görünürdülər. Başa düşürdülər ki, ermənilərin Qarabağda yaşamalarının yeganə yolu Azərbaycan Respublikasının qanunlarına əməl etməkdən keçir.

Ruben Vardanyanın Qarabağa gəlişi səbəbsiz deyildi. O, Qarabağa Nikol Paşinyanın hakimiyyətinə təhdid, danışıqlar prosesini pozmaq üçün ezam edilmişdi. Ruben Vardanyan Xankəndidə "məskunlaşandan" sonra Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan "Qızılbulaq" və "Dəmirli" yataqlarının yenidən qanunsuz istismara başlanması, sərvətlərimizin talan edilməsi, təbiətin vandalcasına məhvi də danışıqlar prosesini pozmağa yönəlmiş bir addım idi. Vardanyandan istifadə edənlər anlayırdılar ki, Azərbaycan tərəfi öz torpaqlarında kimlərinsə bir daha özbaşınalıq edib sərvətinin talanmasına göz yummayacaq. Belə də oldu. Azərbaycan öz qətiyyətli mövqeyini sərgilədi. Necə deyərlər, "çanaq bu dəfə də ermənilərin öz başında çatladı". Məsələdən xəbər tutan Azərbaycan gəncliyi, ekofəallar, media mənsublarının və QHT nümyəndələrinin reaksiyası ermənilərin özbaşınalığına sərt cavab oldu. Əvvəlcə mütəxəssislər, ekofəallar qanunsuz qazıntı aparılan mədənlərdə monitorinq aparmaq istədiklərini bəyan etdilər. Buna mane olunduqdan, daha doğrusu, qarşısı alındıqdan sonra vətənpərvər gənclər Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində tələbləri yerinə yetirilməyənədək fasiləsiz dinc etiraz aksiyasına start verdilər. Gənclərimizin başladığı etiraz aksiyası iki aydan çoxdur ki, fasiləsiz olaraq böyük coşqu ilə davam edir.

Laçın-Xankəndi yolunda ictimaiyyət nümayəndələri tərəfindən aksiya başlayandan sonra ermənilər gücsüzlüklərini bir daha dərk etdilər. Anladılar ki, torpağın sahibi Azərbaycandır. Bizimlə zorun, təzyiqin gücü, böhtanın dili ilə danışmaq olmaz. Güvəndikləri böyük dövlətlərin, beynəlxalq təşkilatların öz qanuni torpaqlarında haqqını, hüququnu bərpa edən Azərbaycana təzyiq mexanizmi yoxdur.

İkincisi, mədənlərdə istismar işi dayandırıldı. Bundan sonra Qarabağın təbii sərvətlərində gözü olan hər hansı xarici şirkət də anlayacaq ki, Qarabağda iş görmək istəyirlərsə, mütləq bu, ilk növbədə Azərbaycan hökuməti ilə razılaşdırılmalıdır.

Üçüncü və ən başlıcası, ermənilər başa düşdülər ki, onlara humanitar məqsəd üçün verilmiş Laçın yolundan hərbi məqsədlə istifadə edə bilməzlər. Revanşistlərin, emisarların, "muzdlu mitinqçi"lərin Qarabağa gəlişinin qarşısı alındı.

Qarabağ erməniləri artıq dərk edirlər ki, onlara "müstəqillik" vəd edən separatçı rejimin "prezidenti" "Qarabağdan kənara rus sülhməramlılarının maşınının tenti altında çıxa bilir". Gənclərin Şuşadakı mitinqi Xankəndidə və ətraf ərazilərdə yaşayan ermənilərə Ermənistana getmək üçün Azərbaycanın bayrağı altından keçməli olduqlarını anlatdı. Qarabağın erməni sakinləri gördülər ki, haqq da, ədalət də, güc də Azərbaycan tərəfindədir.

Başqa bir məqam: ermənilər anladılar ki, "gələcək perspektiv", qazanc, hakimiyyət tranplini kimi Qarabağa ezam edilmiş Ruben Vardanyan özü heç kimdir. Ona inanıb, arxasınca getmək ermənilərin fəlakəti olar.

Qarabağa gəldiyi gündən Azərbaycana qarşı üfunət püskürən, Qarabağ ermənilərini zəhərləyən, Azərbaycanla barışıq olmayacağını deyib, müharibə alovunu körükləyən "xilaskar" Ruben Qarabağı rus sülhməramlılarının utilizasiya olunacaq, iyli alt paltarlarının altında, "portyanklara" bükülərək tərk edib. Necə deyərlər, fədakar Azərbaycan gəncliyi Ruben Vardanyana dərs verməklə onu layiq olduğu formada da yola saldı. İndi Vardanyan da, onun kimi düşünənlər də, onlara dəm tutanlar da anlamalıdırlar ki, Azərbaycan təcrübə laboratoriyası deyil. Kimlərsə burada istədiklərini bir daha edə bilməzlər. Bu yurdun öz sahibləri, bu yerin öz qanunları var. Dost kimi yaşayana dost olmağı, düşmənçilik edənə yerini göstərməyi yaxşı bilirik. Ya rus sülhməramlılarının tentli maşınları, iy verən ayaq dolaqlarının altı, ya da qanunlarımızla cənnət Qarabağda yaşamaq. Seçim sərbəstdir!

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İranın molla rejimi məhvə məhkumdur



İranda beş aya yaxındır ki, etirazlar davam edir. Molla rejimi öz hüquqlarını tələb edən kütlənin etirazlarının qarşısını ala bilmir.



Rejim xalqın haqlı tələblərini yerinə yetirmək əvəzinə Azərbaycanı təhdid edir, sərhəddə hərbi təlimlər keçirir, məscidlərimizi, dini abidələrimizi dağıdan, təhqir edən Ermənistanla dostluq edir, Qafanda konsulluq açır. İran Azərbaycanda öz çirkin niyyətlərini həyata keçirmək üçün casus şəbəkəsi yaratmaqdan da çəkinmir.

Uzun illər ərzində İranda Azərbaycan xalqına qarşı çevrilmiş haqsızlıqlar, ədalətsizliklər, pozuculuq və şovinist əməllər insanlarda ikrah hissi yaradıb. Ümumiyyətlə, Güney azərbaycanlıların hüquqlarının təmin edilməsi uğrunda mübarizəsi hər zaman gündəmdə olub. 1905-ci il Səttərxan, daha sonra Şeyx Məhəmməd Xiyabani hərəkatı, Pişəvəri dövründə, yəni 1945-ci ildə Güney azərbaycanlılar yenidən meydana çıxıb, öz milli hökumətlərini qurublar. Arxiv sənədlərindən də məlumdur ki, həmin hökumət bir ildə çox iş görüb. Azərbaycanın milli hökuməti, Milli Məclisi, milli qoşunu olub. Qadınlara kişilərlə bərabər hüquqlar verilib. Azərbaycan dili rəsmi dövlət dili olub. Lakin Pəhləvi rejimi onu dəstəkləyən xarici imperialist qüvvələr vasitəsilə Azərbaycan milli hökumətini devirib. Amma Güneyli azərbaycanlılar rejimin şiddət, assimilyasiya siyasətinə baxmayaraq, öz ana dilini, kimliyini, milliyini yaşatmağı bacarıblar. Qürurlu haldır ki, onlar yenə də öz hüquq və azadlıqları uğrunda davam edən mübarizənin önündə gedirlər. Beş aydan çoxdur ki, "Azadlıq, ədalət, milli hökumət" şüarları ilə rejimə qarşı tələblər irəli sürürlər.

Əslində, İran rejimini qorxudan məhz bu gün Güney Azərbaycanın müstəqil olacağı, Quzey Azərbaycanla əlaqələri sıxlaşdırıb bütöv Azərbaycanın qurulması istəyidir. Buna görə də İran fars hökuməti tərəfindən Güney Azərbaycan torpaqlarına sərmayə yatırılmasına qadağa qoyulub. Bunu İranın sabiq xarici işlər naziri, hazırda ali rəhbərin müşaviri Əli Əkbər Vilayəti yayılmış bir səs yazısında açıq şəkildə etiraf etmişdir. Eyni zamanda rejim tərəfindən güneylilərin öz dədə-baba torpaqlarından çıxarılması istiqamətində məqsədli şəkildə iş aparılır, ekoloji problemlər yaradılır. Urmiya gölünün qurumasına hakimiyyət tərəfindən olan ögey münasibət, Xoy zəlzələsi zamanı rejimin laqeyd davranışı, insanlara lazımi dərəcədə kömək göstərilməməsi də dediklərimizə bariz nümunədir.

Azərbaycan xalqının müqavimətini, mübarizə əzmini qıra bilməyən mollalar müxtəlif adlar altında qisasçılıq siyasəti yürüdürlər. Güney Azərbaycandakı soydaşlarımız isə milli haqlarının təmin edilməsi üçün mücadilə edirlər. Molla rejiminə qarşı keçən ilin sentyabrından başlanan etiraz aksiyaları hələ də davam edir və təəssüflər olsun ki, hakimiyyət tərəfindən soydaşlarımıza amansız divan tutulur. Hazırda onlarca azərbaycanlı fəal rejim tərəfindən həbs edilərək həbsxanalara salınıb və orada amansız işgəncələrə məruz qalıblar. Etiraz aksiyaları başlayandan indiyə qədər bir neçə gənc azərbaycanlı fəal da Tehran rejimi tərəfindən edam edilib və soydaşlarımız uzun müddətdir ki, "Edamlara yox!" şüarı ilə molla rejiminə qarşı etiraz səslərini ucaldırlar. Son günlər baş verən edamlar, həqiqətən də, rejimin soydaşlarımıza qarşı münasibətini ortaya qoyur. Etiraz dalğası genişləndikcə və daha çox Azərbaycan kəndlərini, şəhərlərini əhatə etdikcə molla rejimi daha sərt üsullara əl atır. Onu da qeyd edək ki, həbs edilənlər, ağır işgəncələrə məhkum edilənlər arasında qadınlar da az deyil.

Getdikcə molla rejiminin cəza əməliyyatlarının azərbaycanlılardan qisas formasına keçidi artır. Bu cəzalar təkcə siyasi opponentlərə qarşı çevrilmiş cəza kimi görünür. Artıq molla rejimi fürsətdən istifadə edib etnik-milli zəmində Azərbaycan türklərindən qisas almağa başlayıb. Edam olunanlar arasında azərbaycanlı gənclərin sayının artması, azərbaycanlılar yaşayan bölgədə İran hakimiyyətinin aqressivliyinin yüksələn xətt üzrə getməsi buna misaldır.

Mollakratiya başbilənlərinin siyasi rəqiblərinə qarşı mübarizəsi qeyri-sağlamdır və onlar bu antiinsani davranışları ilə soydaşlarımızı hədəfə alıblar. Rejimin bu davranışının getdikcə daha da amansız olacağı gözləniləndir. Çünki fars şovinistləri azərbaycanlıların baş qaldırmasını, aktivləşməsini qətiyyən istəmir, bu səbəbdən də hər addımbaşı öz qisasçılıq niyyətlərini ortaya qoyurlar. Molla rejiminin soydaşlarımıza qarşı həyata keçirdiyi həbs, repressiya və digər məşəqqətli aktların kökündə güneyli azərbaycanlılardan qisas almaq məqsədi dayanır. Güneyli azərbaycanlıların sayı farsların, eləcə də digər xalqların sayından qat-qat çoxdur.

Təəssüf ki, orada Azərbaycan türkcəsində təhsilə qadağa qoyulub, soydaşlarımızın milli haqları tanınmır. Fars şovinistlərinin uzun illərdir Azərbaycan türklərinə qarşı apardığı assimilyasiya siyasəti, dilimizi, mədəniyyətimizi, ana dilimizi inkar etmək cəhdləri, əlbəttə, heç bir nəticə vermir. Çünki soydaşlarımızı öz milli kimliyindən, kökündən qoparmaq mümkünsüzdür. Bu gün Güney Azərbaycan türkləri öz dilinə, mədəniyyətinə, milli kimliyinə və milli mübarizəsinə bağlıdır və o bağı heç bir repressiya və zorakılıq yolu ilə qoparmaq mümkün deyil.

Tehran rejiminin məqsədi hazırda İran adlanan ölkəni türksüzləşdirməkdir. Azərbaycan türklərinin tarixini, mədəni irsini dağıtmaq, dağıdıla bilinməyənlərin isə farslaşdırılması istiqamətində davamlı iş aparılır.

Bu da zamanın reallığıdır ki, İrandan soydaşlarımıza həm Azərbaycan dövləti, həm də dünya azərbaycanlıları tərəfindən ciddi mənəvi dəstək var. Molla rejimi narahat olur ki, azərbaycanlılar mübarizəni sona qədər aparacaqlar. Bu da o deməkdir ki, fars-molla rejiminin uzun illər yürütdüyü siyasət yaxın gələcəkdə tamamilə iflasa uğrayacaq, necə ki uğrayır.

Heç kimə sirr deyil ki, mollaların soydaşlarımıza qarşı apardığı siyasət ermənilərin yürütdüyü siyasətə bənzəyir və onların davranışı bir-birinə çox oxşayır. Ermənipərəst rejimin soydaşlarımıza qarşı qisasçılıq hissinin alovlanması həm də onların ermənilərin təəssübünü çəkdiyini göstərir. Gənc azərbaycanlıları edam etdirən molla rejiminin bu davranışları tərəqqipərvər dünya ictimaiyyəti tərəfindən kəskin qınanır.

Görünən odur ki, azərbaycanlılar öz haqlarını tələb etdikləri üçün onlara qarşı sərt cəza tədbirləri görülür, müxtəlif bəhanələr gətirilərək soydaşlarımız həbs edilir və onların edamlarına qərar verilir. Bu da ilk növbədə rəsmi Tehranın soydaşlarımıza bəslədiyi nifrət münasibətinin təzahürüdür. Çünki illərdir Azərbaycan xalqının müqavimətini, mübarizə əzmini qıra bilməyən rejim müxtəlif adlar altında qisasçılıq siyasəti yürüdür. Bu isə İranın molla rejimini məhvə sürükləyir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Vergi güzəştləri medianın inkişafına yeni imkanlar yaradacaq

**Media subyektlərinin özfəaliyyət hesabına və reklamdan əldə etdikləri gəlirləri, eləcə də müvafiq dövlət qurumu tərəfindən onlara verilən maddi yardımlar gəlir və mənfəət vergisindən, həmçinin sadələşdirilmiş vergidən azad edilir. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin fevralın 6-da keçirilən iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb. İlkin hesablamalara görə, dəyişikliklər nəticəsində media subyektlərinə 10 milyon manata yaxın güzəşt tətbiq edilə bilər.**



Vergi güzəştləri media sahəsində reklam gəlirlərinin leqallaşdırılması, reklam bazarının həcminin artırılması və canlandırılması hesabına media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsinə imkan yaradacaq. Bu bir daha sübut edir ki, ölkə mediasının üzləşdiyi sosial-iqtisadi problemlərin aradan qaldırılması üçün bütün lazımi addımlar atılır.

### Stimulların davamlı tətbiqi məqsədəuyğundur

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, Vergi Məcəlləsinə təklif edilən bu dəyişikliklər medianın inkişafı üçün yeni imkanlar yaradır. Deputatın sözlərinə görə, xüsusən ixtisaslaşmış media subyektləri, praktiki olaraq, həmin dəyişikliklər nəticəsində vergilərdən azad olunur. Həmçinin həmin media qurumlarına reklam verən şirkətlər üçün də əlavə dəyər vergisindən azadolmalar nəzərdə tutulub.

"3 il müddətində nəzərdə tutulan media güzəştlərinin ümumi dəyəri 10 milyon manatdır. Güzəşt müddətinin gələcəkdə uzadılması da təklif edilir. Onlayn və çap mediasının inkişafı ilə bağlı bütün mümkün stimulların davamlı tətbiqi məqsədəuyğundur. İstənilən halda isə, müddətindən asılı olmayaraq vergilərdən azadolmalar medianın inkişafına dəstək xarakteri daşıyır. Bu bir daha təsdiq edir ki, Azərbaycan dövləti yerli medianın inkişafı üçün bütün mümkün vasitələrdən istifadə edir və jurnalistlərin qarşılaşdığı sosial-iqtisadi çətinliklərin aradan qaldırılmasında maraqlıdır", - deyə deputat bildirib.

V.Bayramov qeyd edib ki, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər ölkəmizdə medianın inkişaf etdirilməsi ilə bağlı güclü siyasi iradənin mövcud olduğunu bir daha sübut edir: "Bunun üçün elə təkcə vergi güzəştləri deyil, dövlətin bu sahədə verdiyi qərarların hər birinin məzmununa nəzər salmaq kifayətdir. Azərbaycan mediasının iqtisadi dayanıqlığının gücləndirilməsi dövlətin prioritetlərindəndir. Onu da xüsusi qeyd etmək lazımdır ki, medianın inkişafına nail olmaq məqsədilə ölkədə icra edilən layihələr beynəlxalq medianın standartlarına və müasir çağırışlara cavab verir".

### Vergi güzəşti jurnalistlərin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olacaq

Jurnalistlərin Həmkarlar İttifaqının təsisçisi Müşfiq Ələsgərli media subyektləri üçün təklif edilən yeni güzəştlər barədə fikirlərini bildirib. O qeyd edib ki, Medianın İnkişafı Agentliyinin təşəbbüsü ilə Milli Məclisin müvafiq komitəsində müzakirə olunan onlayn və çap mediası üçün nəzərdə tutulan yardımların və digər gəlirlərin vergidən azad edilməsi məsələsi peşəkar media subyektləri üçün ciddi mənbə rolunu oynayacaq. Onun fikrincə, son illərdə beynəlxalq investorlar peşəkar media qurumlarının deyil, sosial medianın inkişafına daha çox investisiya yatırırlar: "Peşəkar media subyektlərinin bu cür investisiyalardan kənar qalması onlarla sosial media arasında ədalətsiz rəqabət mühitinin yaranmasına səbəb olur. Sosial şəbəkələrdə yerləşdirilmiş reklam, elan və digər bu kimi vasitələrlə əldə olunan gəlirlər isə adətən ölkə xaricində olan kənar mənbələrə gedir. Belə olan halda Azərbaycanın media subyektləri ciddi bir maliyyə mənbəyindən məhrum olur. Ona görə də artıq uzun müddətdir ki, media ekspertləri Azərbaycanda peşəkar media subyektlərinə müəyyən güzəştlərin tətbiq edilməsinin zəruriliyini vurğulayır və müvafiq təkliflər verirlər. Belə təkliflər peşəkar medianın ədalətsiz rəqabət mühitində dayanıqlığını artırmağa və iqtisadi müstəqilliyinin gücləndirilməsinə istiqamətlənib", - deyə M.Ələsgərli qeyd edib.

Jurnalistin sözlərinə görə, təəssüf ki, media məkanında mövcud olan xaos, yalançı kəmiyyət göstəricisi uzun müddət sosial proqramların həyata keçirilməsinə imkan verməyib. Lakin Media Reyestrinin işə başlaması ilə bu sektordakı xaotik vəziyyət aradan qaldırılır. "Yalançı KİV-lə peşəkar medianın sərhədlərinin müəyyən edilməsi dövlətə imkan verir ki, peşəkar media qurumları üçün müəyyən güzəştlər tətbiq etsin. Onu da qeyd etmək lazımdır ki, güzəştlər nə qədər çox olsa da, bu, dövlət büdcəsinə ciddi ağırlıq gətirmir. Onlayn və çap mediasının dövriyyədən və ya reklamlardan dövlət büdcəsinə ödədikləri illik vergi ödənişlərinin ümumi məbləği 10 milyon manatdır. Güzəştlər tətbiq edildikdə isə həmin 10 milyon manat dövlətə ödənilməyəcək. Nəzərə almaq lazımdır ki, bu, media subyektləri üçün əhəmiyyətli məbləğdir. Dövlət büdcəsinə xüsusi ziyan vurmadan peşəkar KİV-in gəlirlərinin artmasına nail olmaq təqdirəlayiqdir. Nəticədə informasiya məkanımız, bütövlükdə isə cəmiyyətimiz bundan uduş əldə edəcək", - deyə müsahibim qeyd edib.

M.Ələsgərli onu da deyib ki, peşəkar medianın maliyyə mənbələrinin inkişaf etdirilməsi həmçinin jurnalistika ilə məşğul olanların sosial vəziyyətinin yaxşılaşmasına da səbəb olacaq: "Bu həm də peşəkar media məkanının təkmilləşməsinə təkan verəcək. Bu baxımdan Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin faydalı olacağına inanırıq".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı onların haqqıdır

## Soydaşlarımız bu günü səbirsizliklə gözləyirlər

**Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələrdən, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatdırılmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayırlar.**

Ancaq həqiqət ondan ibarətdir ki, ermənilərin hiyləgərliyi və sovet hakimiyyətinin haylara verdiyi dəstək nəticəsində Qərbi Azərbaycandan 1948-ci və 1953-cü illərdə dövlət səviyyəsində deportasiya adı altında yurdundan zorla qovulanlar, onların oğul və qızları, nəvə və nəticələri ömrü boyu həmin yerlərə qayıtmağın arzusu ilə yaşayıblar, yeri gələndə israrla tələb ediblər. Təəssüf ki, nə sovet hakimiyyəti, nə də ermənilərin dünyanın müxtəlif siyasi dairələrdə kök salan lobbiləri bunun reallaşmasına bütün variantlarda mane olublar. Ancaq Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində 2020-ci ilin noyabrında tarixi qələbə ilə başa çatan Vətən müharibəsinin yaratdığı yeni reallıqlar ictimaiyyətdə böyük inam yaradıb ki, vaxtilə Qarabağdan və ölkəmizin digər ərazilərindən qaçqın və köçkün düşən insanlar dədə-baba yurdlarına qayıtdıqları kimi, Qərbi Azərbaycandan olan insanlar da öz doğma torpaqlarına dönəcəklər. Onlarda bu inama tam yəqinlik yaradan, ilk növbədə Prezident İlham Əliyevin ötən il dekabrın 24-də Qərbi Azərbaycandan olan ziyalıların bir qrupu ilə görüşündə: "Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.

Bunu deməyə əsas verən bir çox amil var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır.

Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar" deməsidir.

Ölkə rəhbərinin bu çıxışından sonra Qərbi Azərbaycan İcması tərəfindən indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə hazırlanmış Qayıdış Konsepsiyası geniş ictimaiyyətdə rəğbətlə qarşılanmış, habelə Qərbi azərbaycanlıların statusu məsələsi aktuallaşmışdır. Qərbi Azərbaycandan deportasiya edilən soydaşlarımız öz statuslarının geri qaytarılmasını gözləyirlər. Məsələ Milli Məclisin yaz sessiyası müddətində gündəmdə olacaq.

Xatırladaq ki, Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyanı hesablanıb. Hazırda isə bu işlər dəqiqliyi ilə davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanın 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində ciddi iş aparır. Qeyd edək ki, sovet dönəmində erməni daşnakları məqsədli şəkildə yazdıqları, yaydıqları kitab, qəzet və jurnallarda mədəniyyətimizin, zəngin irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya ermənilərə mənsub olduğunu iddia etməyə çalışıblar. Eyni zamanda ermənilər tərəfindən azərbaycanlıların mənfi obrazının formalaşdırılması cəhdləri də unudulmayıb.

Konsepsiyaya əsasən, indiki Ermənistan ərazisindən qovulmuş bütün azərbaycanlıların və onların törəmələrinin öz vətənlərinə qayıtmaq hüququ var. İcma Azərbaycan Respublikasının və Qərbi azərbaycanlıların məskunlaşdığı digər dövlətlərin əhali reyestr xidmətlərinin yardımından istifadə edərək müvafiq beynəlxalq metodologiya əsasında icma üzvlərinin siyahıyaalınmasını həyata keçirir. Bu cür siyahıyaalınmada effektiv vasitələrdən birinin aidiyyəti şəxslərin özünü təqdim etməsi olduğu nəzərə alınaraq, onları bu addıma təşviq etmək üçün vətənindən qovulmanın ciddi hüquq pozuntusu olması barədə geniş informasiya kampaniyası aparılacaq, təhlükəsiz və ləyaqətlə geri qayıtmaq yanaşmasının mahiyyəti geniş ictimaiyyətə izah ediləcək.

Bu konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün icmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Qürurverici haldır ki, bu günlərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur.

1948-ci ildə Stalin deportasiyasına məruz qalan Şadlinskilər nəslinin nümayəndəsi, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, professor Vaqif Şadlinski bildirmişdir ki, indiki Ermənistan ərazisindən qovulmuş bütün azərbaycanlılar və onların varislərinin öz vətənlərinə qayıtmaq hüququ var. Bu onların haqqıdır. Son 200 ildə başımıza gələn müsibətlərdən dolayı icma təhlükəsizlik məsələlərində, əlbəttə ki, Ermənistan hökumətinə etibar etmir. Bu təbiidir. Ona görə də konsepsiyamızda da qeyd olunur ki, müvafiq mandatla beynəlxalq təhlükəsizlik missiyası qayıdış olacaq ərazilərə yerləşdirilməlidir. Həmçinin missiya Qərbi azərbaycanlıların etimad göstərdiyi ölkələrin qüvvələrindən ibarət olmalıdır.

Azərbaycanlılara qarşı törədilən bütün hüquq pozuntuları, indiyə qədər yaşadığımız ağrı-acılı hadisələr kimi mülkiyyət hüququnun pozulması və onların nəticələrinin aradan qaldırılmasına görə məsuliyyəti də Ermənistan hökuməti daşıyır. Ermənistan hökuməti bizə məxsus mülkiyyətin və icma torpaqlarının qaytarılmasını təmin etməli, vurulan zərərə görə kompensasiya ödəməli, həmçinin azərbaycanlıların mülkiyyət hüquqlarının bərpasından irəli gələn bütün xərcləri ödəməli və digər lazımi tədbirləri görməlidir. Bundan başqa, deportasiya edilmiş azərbaycanlılar qayıtdıqdan sonra ilk dövrlərdə humanitar yardıma, sonra uzunmüddətli sosial və iqtisadi inkişaf üçün reinteqrasiya və reabilitasiya proqramlarına və yardımlara ehtiyac duyacaqlar. İcma bu sahədə müvafiq proqram həyata keçirmək üçün beynəlxalq qurumlar və donorların əsas tərəf-müqabili olmaqda qərarlıdır.

V.Şadlinski həmçinin bildirib ki, bizim missiyamız təkcə qayıdış məsələsi ilə məhdudlaşmır. İcma Qərbi azərbaycanlılar öz vətəninə qayıtdıqdan sonra da təşkilat kimi fəaliyyətini, o cümlədən orada yaşayan azərbaycanlıların maraqları, hüquqları, inkişafı və təhlükəsizliyinin təmin edilməsi üzrə səylərini, bu məqsədlə Azərbaycan Respublikası, xarici dövlətlər və beynəlxalq təşkilatlar, eləcə də Ermənistan hökuməti və Ermənistan ictimaiyyəti ilə dialoq və qarşılıqlı fəaliyyətini davam etdirmək niyyətindədir. Bizə - Qərbi azərbaycanlılara qarşı böyük haqsızlıqlar törədilib, görülməz müsibətlər yaşamışıq. Bu ağrılı keçmişi tarixi yaddaşımızda saxlayacağıq. Bununla bərabər, icmamız qəbul edir ki, sülh və inkişafın təmin edilməsinin yolu barışıqdan keçir. Qərbi azərbaycanlılar onların vətəninə başqa ölkələrdən köçürülən ermənilərlə dinc və yanaşı yaşamağa hazırdırlar. Eyni zamanda Ermənistan hökuməti azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasətini dayandırmalıdır.

***R.SALMANLI,***
***"Azərbaycan"***

# REGİONLAR

## "Azərbaycanda məşğulluğa dəstək" layihəsi davam edir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi ilə bağlı İmişli və Beyləqanda işaxtaran və işsiz şəxslərin iştirakı ilə məlumatlandırma tədbirləri keçirilib.**



Layihənin məqsədləri, hədəf qrupları, proqramın gözlənilən faydaları və müraciət qaydaları barədə iştirakçılara məlumatlar verilib. Qeyd olunub ki, layihənin məqsədi ən yaxşı təcrübələr əsasında özünüməşğulluq proqramının genişləndirilməsi və işsiz şəxslərin özünüməşğulluq fəaliyyəti əsasında kiçik biznes imkanlarına sahib olmalarına dəstək göstərməkdir. İştirakçıları maraqlandıran suallar cavablandırılıb, bu layihə çərçivəsində öz biznesini qurmaq istəyən şəxslərə müvafiq tövsiyələr verilib. Həmçinin iştirakçılara layihə və təqdim edilən biznes zərflər barədə məlumatların əks olunduğu çap materialları paylanıb.

Xatırladaq ki,"Azərbaycanda məşğulluğa dəstək" layihəsi üzrə 22 min işsiz şəxsin kiçik biznesə çıxışına imkan yaradılması nəzərdə tutulub və onlardan artıq bir hissəsi layihənin dəstəyi ilə kiçik bizneslərini qurub. Layihəyə cəlb olunanlar üçün ilkin mərhələdə biznes təlimlər təşkil olunur. Təlimlərin sonunda keçirilən qiymətləndirmə prosesində biznes planlarını müdafiə edən şəxslərə istehsal və xidmət sahələri üzrə avadanlıqlar verilir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Yaxın qonşu

**Ölkəmizin iqtisadi inkişafında sanballı rolu və payı olan rayonlardan biri də Abşerondur. İnzibati mərkəzi Xırdalan şəhəri olan rayonu digər bölgələrdən fərqləndirən cəhətlərdən biri də onun abadlığıdır.**



Abşeron rayonu abadlıq və təmizlik sarıdan paytaxtdan geri qalmamağa çalışır

Abşeron rayonunda abadlıq, səliqə-sahman işləri bir gün də olsun səngimir. Xırdalan şəhəri də daxil olmaqla bütün kənd və qəsəbələrdə abadlıq-təmizlik işləri getdikcə sürətlənir. Bu işlərdə rayon icra hakimiyyətinin təşkilatçılığı ilə kənd-qəsəbə bələdiyyələri və inzibati ərazi dairələri üzrə nümayəndəliklər fəal iştirak edirlər.

Saray rayonun böyük yaşayış məntəqələrindəndir. Qəsəbə həm də qədim tarixi ilə seçilir. Və bu qədim qəsəbə indi tarixinin ən abad dövrünü yaşayır. Sarayın küçələrinə asfalt döşənib, yollarının kənarında ağaclar və zeytun kolları əkilib.

Xırdalan şəhər ərazisində də abadlıq və təmizlik işləri aparılıb. Genişləndirilərək əsaslı surətdə yenidən qurulan Heydər Əliyev prospektində tikili və hasarların fasadları qaya daşı, qranitlə üzlənib, yolda müasir elektrik dirəkləri quraşdırılıb. Şəhərin mərkəzi küçələri boyu Xan çinar, dekorativ kol və qızılgül tingləri əkilib. Söz düşmüşkən, onu da qeyd edək ki, son iki həftədə yaşıllıq sahələrinin artırılması məqsədilə rayonda ağacəkmə aksiyası keçirilib. Şəhid ailələrinin də iştirak etdikləri və ekoloji tarazlığın qorunması layihəsinin davamı olaraq keçirilən aksiyaya gənclər və könüllülər də qatılıblar. Sakinlərin də qoşulduğu yaşıllıq tədbirində kənd və qəsəbələr daxil əvvəlcədən təyin olunmuş ünvanlarda gül kolları, Eldar şamı və digər həmişəyaşıl ağaclar əkilib.

Rayon ərazisində təmizlik işləri də görülür. Ümumilikdə 800 nəfərə yaxın işçi qüvvəsinin və 50-dən çox texnikanın cəlb edildiyi belə işlər zamanı magistralların, küçə və prospektlərin, məhəllədaxili yolların və dalanların, yaşayış binalarının ətrafı tikinti və məişət tullantılarından təmizlənir, texniki vasitələrlə ərazidən uzaqlaşdırılır.

Rayonda həftə sonları təmizlik və abadlıq işlərinin mütəmadi olaraq aparılması qərara alınıb. Qarşıdan gələn baharda abadlıq və təmizlik işlərinin bütün rayon ərazisində aparılması nəzərdə tutulub.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Şəmkirdə multikulturalizmlə bağlı seminar keçirilib

**Şəmkir Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin regional şöbəsinin birgə təşkilatçılığı ilə "Azərbaycanda tolerantlığın və multikulturalizmin dövlət siyasətinə çevrilməsində Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda seminar keçirilmişdir.**

Çıxışlarda diqqətə çatdırılmışdır ki, Ulu Öndər Heydər Əliyev tolerantlığı və multikulturalizmi cəmiyyətin monolitliyini və möhkəmliyini şərtləndirən ən vacib amil kimi qiymətləndirirdi. Uzun illər ərzində müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin ölkəmizdə dinc və qarşılıqlı anlaşma şəraitində yaşadığını söyləyən Ulu Öndər deyirdi ki, Azərbaycanda xristian, yəhudi və digər icmaların mövcud olması, onlar üçün əlverişli şəraitin yaradılması bunun əyani göstəricisidir.

Qeyd olunmuşdur ki, bu gün Azərbaycanın ictimai-siyasi həyatında multikulturalizmə böyük önəm verilir. Ümummilli Lider Heydər Əliyevin müdrikliyi nəticəsində multikulturalizm Azərbaycanda dövlət siyasəti elan olunub və bu kurs hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Astarada ötən il 31,1 milyon manatlıq sənaye məhsulu istehsal olunub

**Astarada ötən il 31 milyon 142,5 min manatlıq sənaye məhsulu istehsal olunub. Bu barədə AZƏRTAC-a rayon statistika idarəsindən bildirilib.**

Sənaye məhsullarının 27,4 faizi emal, 71,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.




## Salyandakı 409 istixanada keçən il 12,4 min tondan çox pomidor, 3,1 min ton xiyar yetişdirilib

**Salyandan çıxıb Şirvan şəhəri istiqamətinə gedərkən Qarabağlı, Pambıqkənd, Kürsəngi kəndləri, habelə Qaraçala qəsəbəsi ərazisində şose yolunun hər iki tərəfində qurulmuş istixanalar diqqəti cəlb edir. Əgər bir zaman sonra bu yolu təkrar getsən, yeni istixanaların yaradıldığının şahidi olursan.**

Fikirləşirsən ki, istixana təsərrüfatları yəqin ki, gəlirlidir. Belə olmasa, heç kəs vəsait qoyub iş görməzdi. Özü də bu ərazidə təkcə yerli adamlar deyil, ayrı-ayrı rayonlardan gəlib istixana quranlar var. Necə deyərlər, həm məhsul bolluğu, həm də iş yerləri yaradırlar. Digər tərəfdən yetişdirilən pomidor, xiyar yerli tələbatı ödəməklə yanaşı, xarici bazarlara da çıxarılır.

Salyanda böyüklü-kiçikli 409 istixana fəaliyyət göstərir. Onlardan 382-də pomidor, 27-də xiyar əkilib-becərilir. Pomidor istixanalarının sahəsi 99,5 hektardır, xiyar istixanaları isə 21,4 hektar sahəni əhatə edir. Keçən il istixanalardan 12 min 455 ton pomidor, 3 min 118 tondan çox xiyar yığılmışdır. Məlum hadisələrlə əlaqədar istehsal olunmuş məhsullar əsasən yerli bazarlarda satılmışdır. Onu da qeyd edək ki, istixanalarda çalışanların demək olar ki, hamısı rayonun kənd və qəsəbələrindən olan adamlardır.

Qarabağlı rayonun iri kəndlərindəndir. Buradakı inzibati ərazi nümayəndəliyinə Təzəkənd, Gomuşlu və Kolanı kəndləri də daxildir. Ümumilikdə, 10 min nəfər əhalisi, 1827 təsərrüfatı olan həmin kəndlərin sakinləri əkinçilik və heyvandarlıqla məşğuldur. 20 nəfər isə həm də 25 hektar istixanada pomidor və xiyar yetişdirir. Keçən il onlar 2 min 500 ton məhsul istehsal etmişlər.

Həmin sahibkarlardan biri Qurban Abasovdur. O, 10 il əvvəl 1 hektarda istixana yaradıb, özü də yeni texnologiyalar əsasında. Təsərrüfatda Qarabağlı kəndindən olan 8 nəfər işçi şalışır. Keçən il istixanadan burada 37 ton xiyar toplanıb. Aqronom İsmayıl Hüseynzadə deyir ki, yaxşı qulluq olunsa, 40 günə xiyar yetişir: "Bu ilin məhsulu üçün noyabr ayında Bakının Kürdəxanı və Maştağa kəndlərindən 40 min şitil alıb vurmuşduq. Lakin havalar tutqun olduğu, yəni günəşli keçmədiyi üçün yetişmə müddəti bir az ləngiyir. Hər gün ancaq 200-250 kiloqram xiyar dərə bilirik. Yığılan məhsulu isə 2-3 gündənbir Sədərəkdəki "Meyvəli" bazarına göndəririk". Onu da bildirək ki, Hacı Qurban nümunəvi fermer kimi böyüyüb boya-başa çatdığı Qarabağlı kəndinin xeyirində, şərində fəal iştirak edir, ehtiyacı olanlara əl tutur.

Sahibkar Niyaməddin Nurəliyevin isə 10 sot torpaqda istixanası var. Keçən il 4 ton xiyar yetişdirib. Cari ilin məhsulu üçün 2022-ci ilin dekabrında şitil vurub. Aprel ayında məhsul yığacağını, qaz, işıq, su sarıdan heç bir çətinliyin olmadığını deyir. Onu da deyir ki, qazın qiyməti bir qədər aşağı olsa, bazara çıxardığı məhsul da ucuzlaşar: "Ucuzluq isə dövlətin sosial siyasətinə bizim kimi istehsalçıların verdiyi əlavə dəstək ola bilər".

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## 85 yaşlı kitab ocağı

### GDU-nun kitabxanası müəllim və tələbələrin mənəvi evinə çevrilib

**Gəncə Dövlət Universitetindəki kitabxana ölkənin ən zəngin ali məktəb kitabxanalarından biridir. Azərbaycan müəlliflərinin əsərlərini, dünya ədəbiyyatı nəşrlərini, bir sıra elmi kitabları mühafizə edən kitabxana müəllim və tələbələrin sevimli məkanına çevrilmişdir.**



1938-ci ildən fəaliyyət göstərən kitabxananın fondunda hazırda 348446 nüsxə kitab var. Burada 1 kitabxana mərkəzi, 3 şöbə, 1 filial və 3 qiraət zalı fəaliyyət göstərir. Bu gün kitabxana yalnız kitablar və dövri mətbuat materialları ilə deyil, həmçinin tammətnli elektron resurslarla da zəngindir və fonda hər il yeni ədəbiyyatlar daxil olur. Bundan başqa, son illər universitet rəhbərliyinin təşəbbüsü ilə kitabxana müasir texnoloji avadanlıqlarla da təmin edilmişdir.

Ümumiyyətlə, kitabxanada müasir texnologiyaların tətbiqinə və kitab fondunun zənginləşdirilməsinə xüsusi diqqət verilir. Burada lokal kompüter şəbəkəsi yaradılmışdır. Şəbəkə yüksək internetlə və kompüterlərlə təmin edilmişdir.

Keçən il kitabxanaya 432 adda 1171 nüsxə müxtəlif profilli ədəbiyyat daxil olmuşdur. Onlardan 1014 nüsxə Azərbaycan, 68 nüsxə rus, 6 nüsxə isə ingilis dilində olan ədəbiyyatlardır.

Burada filial kimi Nuru Paşa adına kitabxana da fəaliyyət göstərir. Müasir standartlara uyğun təmir edilən, rahat mebel avadanlıqları ilə təmin olunan Nuru Paşa adına kitabxana Filologiya və Xarici dillər fakültələrinin profilinə uyğun bütün ədəbiyyatlarla komplektləşdirilmişdir. Bununla yanaşı, kitabxana dərs vəsaitlərinin elektron versiyası ilə də təmin edilmişdir.

Kitabxanada "Qızıl fond" da yaradılmışdır. Fondda XVIII-XX əsrləri əhatə edən rus, ərəb, fars, alman, əski əlifba ilə nəşr olunmuş kitablar və əlyazmalar saxlanılır. Kitabların ən qədimi XVIII əsrə aid "Qurani-Kərim"dir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Daha bir ucqar kənd qazlaşdırıldı

**İsmayıllı rayonunun Enişdibi kəndinin mavi yanacaqla təmin olunması münasibətilə burada tədbir keçirilib.**

Tədbirdə əhalinin mavi yanacağa olan tələbatının ödənilməsi sahəsində görülmüş işlərdən söz açılıb. Dövlət başçısının tapşırıqlarına əsasən, bu istiqamətdə davamlı olaraq mühüm tədbirlərin görüldüyü diqqətə çatdırılıb, rayon əhalisinin 90 faizinin mavi yanacaqla təmin olunduğu vurğulanıb. AZƏRTAC bildirir ki, kənd sakinləri əlamətdar hadisə ilə əlaqədar sevinc hisslərini bölüşüb, Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

◆ **Fermerlərə tövsiyə**

## Karbamid gübrəsindən necə istifadə etməli

**Payızlıq taxıl əkinlərinə aqrotexniki qulluq işləri davam edir. Hazırda təsərrüfatlarda taxıl sahələrinə yemləmə gübrələrinin verilməsinə başlanılıb.**

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsi Əkinçilik Elmi Tədqiqat İnstitutu ilə birlikdə payızlıq əkinlərdə yemləmə gübrəsindən düzgün istifadə ilə bağlı maarifləndirmə işlərinə başlayıb. Maarifləndirmə prosesində ölkəmizdə yemləmə gübrəsi kimi daha çox tətbiq olunan karbamid gübrəsindən düzgün istifadə qaydaları izah edilir.

Karbamid dünyada mövcud olan azotlu gübrələrin içərisində ən geniş istifadə edilən gübrədir. Ağ rəngdə olan bu gübrə suda asanlıqla həll edilə bilir. Tərkibində təsiredici maddə hesabı ilə 46 faizə qədər azot elementi olan karbamid gübrəsi hiqroskopik olmaqla havada olan nəmliyi sürətlə özünə çəkmək qabiliyyətinə malikdir.

Adətən karbamid gübrəsindən taxıl sahələrində yemləmə gübrəsi kimi istifadə edilir. Amma gübrə torpağın səthində qalarsa, parçalanaraq buxarlanır və nəticədə itkiyə səbəb olur. Ona görə də karbamid gübrəsindən istifadə edərkən fermerlər bir neçə məsələni diqqətdə saxlamalıdırlar.

Karbamid gübrəsini vaxtında və düzgün istifadə etməklə yuxarıda qeyd olunan itkinin qarşısını almaq olar. Belə ki, gübrəni torpaqla qarışdırmaq lazımdır. Bunun üçün dəmyə şəraitində əkin aparan fermerlər yağışlı havalardan 1-2 gün öncə torpağa yemləmə gübrəsi verməlidirlər ki, yağan yağış karbamid gübrəsini özündə həll edərək torpağa qarışsın və gübrə itkisi baş verməsin.

Yağışların yağmadığı hallarda isə fermerlər taxıl əkin sahələrinə perpendikulyar istiqamətdə yaşıl mala çəkməlidirlər. Bu zaman karbamid gübrəsi torpaqla qarışır və itkisi az olur. Yaşıl malanın çəkilməsi həmçinin bitkilərin daha yaxşı kollanmasını və inkişafını təmin edir.

Suvarılan sahələrdə karbamid gübrəsini tətbiq edib sahəni dərhal suvarmaq lazmdır ki, gübrə itkisinin qarşısı alınsın.

Bundan başqa, karbamid gübrəsi torpağın normal nəmlik və temperatur +150C-dən yuxarı olduqda bakteriyaların köməyi ilə kimyəvi çevrilmələrə uğrayaraq ammonium və nitrat ionları formasında bitkilərin kökləri tərəfindən mənimsənilir.

Torpaqda ilkin yazda temperatur aşağı olur ki, bu dövr taxıl bitkilərinin azota ən çox ehtiyac duyduqları (kollanma və boruya çıxma fazaları) dövrdür. Bu həm bitkilərin xarici mühit amillərinə qarşı müqavimətini azaldır, həm kollanma əmsalını aşağı salır və nəticədə bitkinin ümumi inkişafını ləngidir. Buna görə də karbamid gübrəsinin tətbiqi zamanı ümumi tövsiyə olunan azot dozasının 20-30 faizinin ammonium nitratla əvəzlənməsi məqsədəuyğundur. Belə ki, bitkinin inkişafının ilkin mərhələlərində bu gübrənin tərkibində olan ammonium və nitrat ionları bitkinin qidalanmasını təmin edir və bitkilər yuxarıda qeyd olunan azot çatışmazlığını hiss etmir.

Bu gübrə torpaq reaksiyasının turşuluğunu artırır. Buna görə də bu gübrə turş olmayan torpaqlar üçün məsləhət görülür.

Bundan əlavə, karbamid gübrəsi suda həll edilərək, kökdənkənar yemləmə gübrəsi kimi də tətbiq edilə bilər. Bu tətbiq üçün ən effektiv konsentrasiya 10 %-li karbamid məhlulu hazırlamaqdır. Kökdənkənar yemləmə gübrəsi məhsuldarlığın və dənin keyfiyyət göstəricilərinin yüksəlməsi ilə yanaşı, eyni zamanda qələvi mühit yaradır ki, bu da göbələklərin inkişafını ləngitməklə funqisid təsirə malikdir.

Qeyd edək ki, karbamid gübrəsi asanlıqla parçalana bilir. Bu baxımdan karbamid kisələrinin günəş düşən nəmli yerdə saxlanılması tövsiyə edilmir. Karbamid gübrəsindən istifadə edərkən dərinizə təmas etməməsi üçün xüsusi çəkmə, əlcəklər geyinmək və eynək taxmaq lazımdır.

*"Azərbaycan"*




# Mədəniyyət

● Musiqi xadimlərimiz



# Musiqiləri ilə əbədiləşən bəstəkar

**O, öz ölməz əsərləri ilə yaddaşlara köçüb. Bəstəkarın musiqi ilə döyünən qəlbinin duyğuları "Məhəbbət"də, "Dostluq"da, "İlk bahar"da, "Bakı gecələri"ndə və daha neçə-neçə mahnılarında əbədiləşib. Azərbaycan musiqi salnaməsini yaradan şəxsiyyətlərdən biri - görkəmli bəstəkar, dirijor, pianoçu, folklorşünas, ictimai xadim, Azərbaycan caz və estrada musiqisinin banilərindən biri, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin yaradıcılığında mahnı janrı aparıcı yer tutsa da, o həm də orijinal estrada əsərlərinin və operettaların müəllifidir.**

Tofiq Quliyev eyni zamanda Azərbaycan kino sənətinin inkişafında misilsiz xidmətləri olan sənətkardır. Yetmişdən çox filmə musiqi bəstələyib. "Səbuhi", "Ögey ana", "Görüş", "Bəxtiyar", "Onu bağışlamaq olarmı", "Telefonçu qız", "Nəsimi" və digər filmlərə yazdığı musiqilər həm də ayrıca mahnılar kimi ifa olunur.

Bəstəkarın sevilə-sevilə ifa olunan, böyük məhəbbətlə dinlənilən əsərləri onu həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından çox-çox uzaqlarda tanıdıb.

### Azərbaycan musiqi sənətimizin inkişafında böyük xidmətləri olan sənətkar

Tofiq Quliyev 1917-ci il noyabrın 7-də Bakı şəhərində dünyaya gəlib. Mühəndis-iqtisadçı Ələkbər Quliyevlə Hacı Zeynalabdin Tağıyevin qızlar gimnaziyasında oxumuş və ilk azərbaycanlı hakimlərdən biri olmuş Yaxşı xanım Mahmudovanın bu istedadlı oğlu uşaqlıq illərindən musiqi sənətinə ürəkdən bağlanıb. On iki yaşında Azərbaycan Dövlət Konservatoriyası yanında peşə məktəbinə, 1934-cü ildə konservatoriyaya daxil olub. İ.S.Aysberqin sinfində fortepiano, S.Q.Ştrasserin sinfində dirijorluq dərsi keçib. 1936-cı ildə konservatoriyada təhsilini başa vurub.

İstedadlı bəstəkar Asəf Zeynallının məsləhəti ilə 1931-ci ildə Mirzə Ələkbər Sabirin sözlərinə "Məktəbli" mahnısını bəstələyib. 1935-ci ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında dirijor kimi fəaliyyətə başlayıb. 1936-cı ildə bəstəkar Z.Bağırovla birgə "Rast", "Segah", "Zabul", "Dügah" muğamlarını fortepianoda hazırlayıb.

Təhsilini davam etdirmək üçün Moskva Dövlət Konservatoriyasına dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə göndərilib. Moskvada A.Tfasmanın rəhbərlik etdiyi orkestrdə pianoçu işləyib.

Bakıya 1939-cu ildə dönüb. 1941-ci ildə "Qırmızı ordu" ansamblını yaradıb. II Dünya müharibəsi illərində bir çox vətənpərvər mahnılar yazıb. Müharibədən sonra M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı, S.Vurğun adına Dram Teatrı və M.Qorki adına Gənc Tamaşaçılar Teatrı ilə əməkdaşlıq edib. 1940-cı illərdə kino sahəsində də fəaliyyət göstərib. 1948-ci ildə Moskva Dövlət Konservatoriyasında təhsilini davam etdirib. 1951-ci ildə aspiranturaya daxil olub. Elmi iş müdafiə edib.

Tofiq Quliyev pedaqoq kimi də Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlər göstərib. O, 1954-cü ildən Azərbaycan Dövlət Konservatoriyasının müəllimi olub. 1958-ci ildə filarmoniyanın bədii rəhbəri, sonra direktoru vəzifələrində çalışıb. 1960-1970-ci illərdə bir çox beynəlxalq konfrans, festival, incəsənət günlərinin iştirakçısı olub. 1969-1979-cu illərdə Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik edib. 1990-cı ildən ömrünün sonuna - 2000-ci ilədək Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin sədri olub.

### "...biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır"

Böyük bəstəkarın sənətinə Azərbaycan xalqı, Azərbaycan dövləti tərəfindən hər zaman maraq, diqqət və qayğı göstərilib. O, çox sevdiyi məmləkətinin xatirəsi hər zaman hörmətlə, ehtiramla yad edilən, əbədiləşdirilən sənətkarlarından biridir. Bəstəkarın yaşadığı binaya xatirə lövhəsi vurulub, paytaxtın küçələrindən birinə adı verilib. Bakı şəhərində adını daşıyan musiqi məktəbi var.

Əsərləri ilə könüllərdə özünə abidə quran Tofiq Quliyevin xatirəsi yenidən anılıb. Heykəli çox sevdiyi, haqqında mahnılar yazdığı Bakı şəhərinin mərkəzində əbədiləşdirilib.

Fevralın 8-də Bakıda görkəmli bəstəkar Tofiq Quliyevin abidəsinin açılış mərasimi olub. Tədbirdə iştirak edən Prezident İlham Əliyev çıxışında qeyd edib ki, şəhərimizin mərkəzində ucaldılan bu abidə Azərbaycan xalqının dahi bəstəkarı Tofiq Quliyevin xatirəsinə olan hörmətin əlamətidir: "Həqiqətən, Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir. Tofiq Quliyev həm görkəmli bəstəkar, həm Azərbaycanda caz sənətinin banisi də adlandırıla bilər. Eyni zamanda böyük mədəniyyət xadimi Tofiq Quliyev Azərbaycan xalqının sevgisini qazanmışdır".

Prezident İlham Əliyev vurğulayıb ki, onun əsərləri, doğrudan da, bizim böyük sərvətimizdir. Tofiq Quliyevin əsərlərinin ölməz əsərlər olduğunu, bu gün də səsləndiyini, bundan sonra da uzun illər ərzində səslənəcəyini diqqətə çatdıran dövlət başçısı bildirib ki, çünki bu əsərlərin mahiyyətində həm Tofiq Quliyevin istedadı, eyni zamanda Azərbaycan xalqına, doğma Bakı şəhərinə olan məhəbbəti dayanır. Tofiq Quliyevin öz xalqına bağlılığını Azərbaycan, Bakı haqqında əsərlərində göstərdiyini vurğulayan Prezident İlham Əliyev onun eyni zamanda çox gözəl insan, gözəl ziyalı, sözün əsl mənasında, böyük mədəniyyət xadimi olduğundan və öz fəaliyyəti, öz əsərləri, Azərbaycanın ictimai həyatındakı rolu ilə tarixdə layiqli yerini tutduğundan da söz açıb.

Dövlət başçısı İlham Əliyev atası Heydər Əliyevi Tofiq Quliyevlə sıx dostluq əlaqələrinin bağladığını xatırladıb: "Onların dostluğu çox təbii idi, səmimi idi, təmənnasız idi, əsl dostluq idi. Tofiq Quliyevin 80 illik yubileyində Ulu Öndər Heydər Əliyev məşhur sözləri demişdir, yəqin ki, hamımız o sözləri xatırlayırıq - biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır. Artıq o gündən 26 il keçib və nə qədər dəqiq, həqiqətə uyğun sözlərdir, indi biz bunu bir daha görürük. Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Firidun bəy Köçərli - 160

# Böyük vətənpərvər

**Azərbaycanın ictimai fikir tarixində mühüm xidmətləri olan görkəmli ədəbiyyatşünas alim, yazıçı-publisist və tərcüməçi Firidun bəy Köçərlinin anadan olmasından 160 il ötür. Bu böyük nəzəriyyəçi Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna dair bu gün də mötəbər mənbə kimi dəyərini qoruyan əsərlər yaratmış, çoxcəhətli zəngin fəaliyyəti ilə ictimai fikrin yüksəlişinə töhfələr vermişdir.**



2013-cü ildə anadan olmasının 150-ci ildönümü tamamlanarkən Azərbaycan Respublikası Prezidentinin "Firidun bəy Köçərlinin 150 illik yubileyi haqqında" müvafiq sərəncamında haqlı olaraq görkəmli ziyalının maarifçilik fəaliyyətinə də xüsusi diqqət yönəlmiş, ölkəmizdə təhsil sisteminin milli əsaslar üzərində qurulması prosesində onun xidmətləri, apardığı işlərin böyük əhəmiyyəti xüsusi vurğulanmışdır.

Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığı tarixində böyük bir mərhələnin yaradıcısıdır. O, Azərbaycanda realizmin ilk böyük nəzəriyyəçisi sayılan M.F.Axundzadənin başladığı işi geniş miqyasda davam etdirmiş, getdikcə əhatəsi genişlənən, təsiri güclənən mətbuatdan, nəşriyyatların imkanlarından faydalanaraq fədakar bir vətənpərvər kimi xalqın, cəmiyyətin inkişafına səy göstərmişdir. O, ədəbiyyatı zəmanənin aynası gözündə görür və dövrün şairlərindən, yazıçı və dramaturqlarından öz əsərlərində reallıqları ayna kimi əks etdirmələrini gözləyirdi.

### Mənalı ömür tarixi

Aradan ötən 160 il bütün həyatını faydalı məqsədlərə, xalqın maariflənməsinə, elm-təhsil işığının daha geniş çevrədə yayılmasına, insanların dünyagörüşünün inkişafına həsr etmiş böyük bir şəxsiyyətin mənalı ömür tarixidir.

Firidun bəy Əhməd ağa oğlu Köçərli 1863-cü ildə Şuşa şəhərində anadan olmuş, uşaqlıq illərini bu şəhərdə keçirmişdir. 1872-ci ildə Mirzə Kərim Münşizadənin məktəbinə daxil olub fars dilini öyrənmişdir. 1875-ci ildə atası onu Şuşadakı rus məktəbinə qoyur. Burada rus dilini öyrənir, rus və dünya ədəbiyyatı nümunələri ilə tanış olmağa başlayır. 1879-cu ildə isə Qori Müəllimlər Seminariyasının tatar şöbəsinə daxil olur.

Seminariyada aldığı təhsil, əhatə olunduğu mühit onun fərdi inkişafında, dünyagörüşünün formalaşmasında çox mühüm rol oynayır. O, müxtəlif elmlərlə tanış olur, dünya ədəbiyyatı nümunələrinin mütaliəsinə xüsusilə geniş vaxt ayırır, eyni zamanda pedaqogikaya həvəs göstərir. 1885-ci ildə seminariya təhsilini başa vuran Firidunu İrəvan gimnaziyasına Azərbaycan dili və şəriət müəllimi vəzifəsinə təyin edirlər. Qısa müddət ərzində o, müəllimlik fəaliyyətində böyük uğurlar qazanır. Müxtəlif mükafatlara layiq görülür və rütbələr alır.

İrəvan gimnaziyasında o, elmi-publisistik fəaliyyəti ilə də ciddi şəkildə məşğul olur. Maarif məsələlərinə dair məqalələr yazır, A.Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türki" adlı dərslik hazırlayır. Hətta fəlsəfəyə dair əsərlər də qələmə alır. 1891-ci ildə "Təlimati-Sokrat" adlı fəlsəfi əsərini Bağçasaraydakı "Tərcüman" mətbəəsində nəşr etdirir. O, bədii tərcümə ilə də ardıcıl şəkildə məşğul olur, rus ədəbiyyatı klassiklərindən - Puşkindən, Lermontovdan, Tolstoydan, Koltsovdan tərcümələr edir, tənqidi məqalələr yazır. "Vətən dili" dərsliyinin müəllifi A.O.Çernyayevskinin 1894-cü ildə Firidun bəy Köçərliyə göndərdiyi məktub onun tərcümə mətnlərinin nə qədər yüksək bədii keyfiyyətə malik olduğunu göstərir.

İrəvan gimnaziyasında çalışdığı illərdə o, teatr fəaliyyətinə böyük maraq göstərir. 1886-cı ildə kiçik səhnəciklərdən ibarət ilk teatr tamaşasına quruluşlar verir. 1890-cı ildə isə İrəvanda "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaya qoyur.

### Böyük müəllim və ədəbiyyatşünas

İrəvan gimnaziyasındakı 10 illik fəaliyyətindən sonra 1895-ci ildə Firidun bəy Köçərli Qori Müəllimlər Seminariyasının tatar şöbəsinin Azərbaycan dili və şəriət müəllimi vəzifəsinə təyin edilir. Burada müəllimliklə yanaşı, tənqid və ədəbiyyatşünaslıq fəaliyyətini də davam etdirir. Dövrünün məşhur "Kavkaz", "Zakavkaziya", "Kaspi" qəzetlərində təhsil və maarif, təlim-tərbiyə, əlifba, dərsliklər mövzusunda məqalələri çap olunur. Məsələn, 1898-ci ildə çap olunmuş "Ərəb əlifbası və onun nöqsanları" adlı silsilə məqaləsində onun Mirzə Fətəli Axundzadənin əlifba haqqındakı fikirlərinin davamçısı kimi çıxış etdiyini görürük. 1902-ci ildə isə F.Köçərli Məhəmməd ağa Şahtaxtlının yeni əlifba layihəsi haqqında öz tənqidi mülahizəsini çap etdirir.

Bu illərdə o, Azərbaycan ədəbiyyatının tədqiqi ilə də ciddi şəkildə məşğul olur. 1895-ci ildə "Tatar komediyaları", 1903-cü ildə "Azərbaycan şairi Vaqifin həyatına dair", 1904-cü ildə "Ədəbiyyatımıza dair məktub" adlı məqalələrini qələmə alır. M.F.Axundzadənin məşhur "Aldanmış kəvakib" povestini rus dilinə çevirir və "Kavkazskiy vestnik" jurnalının 1901-ci ilin may nömrəsində dərc etdirir. 1903-cü ildə "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı ayrıca kitabça da buraxır. Bir müddət sonra isə "Azərbaycan türklərinin ədəbiyyatı" adlı məşhur əsərini yazıb tamamlayır. Amma sağlığında bu əsərin nəşrini görmək ona qismət olmur. Naşirlər müxtəlif bəhanələrlə kitabın nəşrindən imtina edirlər. Bütün çətinliklərə rəğmən Firidun bəy Köçərli yenə də fəaliyyətinə ara vermir, 1911-ci ildə "M.F.Axundov", 1912-ci ildə "Balalara hədiyyə" kitablarını nəşr etdirir və hər iki kitab ədəbi ictimaiyyətdə böyük maraqla qarşılanır.

Görkəmli ədəbiyyat nəzəriyyəçisi dövrünün əksər tanınmış ziyalıları ilə məktublaşır, bu, ona bir çox elmi düşüncələrini həmfikirləri ilə bölüşməyə, eyni zamanda tədqiqat üçün materiallar toplamağa imkan yaradır. Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatı tarixinə dair materialların çoxunu o, məhz məktublarla əldə etmişdi. Görkəmli ədəbiyyatşünasın məktub və məqalələrində irəli sürdüyü rəylər, verdiyi tövsiyələr zəmanəsinin M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev, N.Vəzirov, A.Səhhət, A.Şaiq, Y.V.Çəmənzəminli, S.M.Qənizadə kimi yazıçılarının yaradıcılığına müsbət təsir göstərmişdi.

Firidun bəyin yaradıcı adamlar qarşısında irəli sürdüyü əsas məsələlərdən biri də sənət əsərlərinin bədiiliyi, gözəlliyi, bədii təsvir qüvvəsinə malik olması idi. O, istənilən əsərin həyatını təsvir etməklə yanaşı, ona təsir göstərməsini də vacib sayırdı. Ədibin fikrincə, əsl ədəbiyyat elə qabaqcıl ideyalar aşılamalıdır ki, xalqın inkişafına istiqamət verə bilsin. Ana dilinin saflığının qorunması da görkəmli maarifçinin sənət adamları qarşısında irəli sürdüyü əsas tələblərdən idi. O, yazırdı ki, ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Azərbaycan dilini fars, ərəb, rus söz və ibarələri ilə ağırlaşdırmağa çalışanları böyük bir inadkarlıqla tənqid edirdi.

F.Köçərli müasir ədəbiyyat məsələləri ilə yanaşı, Azərbaycan ədəbiyyatının tarixini tədqiq etməklə də müntəzəm məşğul olmuş, ədəbiyyat tarixinə bütün fəaliyyəti boyu böyük maraq göstərmişdir. Həmçinin onun ədəbiyyatşünaslıq fəaliyyətində başqa xalqların ədəbi nailiyyətlərini öyrənərək təbliğ etmək böyük yer tutur. O, yaxşı bilirdi ki, böyük ədəbiyyat yaratmaq istəyən xalq mütləq başqalarından da öyrənib faydalanmalıdır. Ona görə də Köçərli başqa xalqların ədəbi nümunələrinin yayılmasına xüsusi diqqət yetirir, Azərbaycan dilinə bədii tərcümələr edir, Puşkin, Lermantov, Qoqol, Turgenyev, Nekrasov, Tolstoy, Çexov, Qorki və digər yaradıcı şəxsiyyətlərin irsi haqqında məqalələr yazırdı.

### Təhsil təşkilatçısı

1910-cu ildə Firidun bəy Köçərli Qori seminariyasının Azərbaycan şöbəsinin təlimatçısı vəzifəsinə təyin olunur, sonra şöbənin inspektoru olur, müəyyən müddət bu vəzifədə çalışır. Onu da yada salaq ki, hələ Zaqafqaziya müəllimlərinin 1906-cı ildə keçirilmiş 1-ci və 2-ci qurultaylarında Firidun bəy Köçərli təhsilin milliləşdirilməsi məsələsinə xüsusi toxunmuş və bu prosesə təhsilin məzmunundan başlamağı vacib saymışdı. O, Qori Müəllimlər Seminariyasında təhsilin azərbaycanlı uşaqlar üçün daha əlçatan olması məqsədilə bu bölmənin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi arzusunda idi. 1916-1917-ci illərdə seminariyanın Azərbaycana köçürülməsi üçün təşəbbüs göstərir, təkliflər irəli sürürdü. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması bu arzunu gerçəkləşdirməyə imkan yaradır və F.Köçərlinin sözün əsl mənasında fədakarlığı sayəsində seminariyanı Qazaxa köçürmək mümkün olur.

Qazaxın Kosalar kənd sakini Məşədi İbrahim Hacı İsmayıl oğlu özünün 17 otaqdan ibarət mülkünü seminariyaya bağışlayır. Yerli sakinlərin, seminariyanın Qazaxdakı keçmiş məzunlarının köməyi ilə şöbənin əmlakı Ağstafa vağzalından bu mülkə daşınır. F.Köçərli "Azərbaycan" qəzetindəki məqalələrindən birində göstərirdi ki, Qazax əhalisi Qori seminariyasının Azərbaycan şöbəsinə 10 desyatin yer ayrılması və seminariyanın fəaliyyəti üçün birdəfəlik 3 min manat, hər il də min manat pul ödənilməsi barədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qarşısında məsələ qaldırıb. Hökumət 1918-ci il 10 iyul saylı iclasının qərarı ilə bu məsələni təmin etmişdi.

Firidun bəy Qazax Müəllimlər Seminariyasının müdiri kimi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsilin milliləşdirilməsi planının icrasında mühüm rol oynayırdı. Milli hökumətin maarif naziri Həmid bəy Şahtaxtinski köhnə proqramları yeni dövrün tələblərinə uyğun yenidən tərtibi məqsədilə F.Köçərliyə göndərmiş, o da həm proqramı əsaslı şəkildə redaktə etmiş, xüsusilə "Azərbaycan tarixi" proqramına geniş tənqid və izahlar yazmış, bir sıra fundamental təkliflər irəli sürmüşdü. Firidun bəyin ardıcıl səyləri nəticəsində Qazax Müəllimlər Seminariyasının şöhrəti tezliklə bütün Azərbaycana yayılır və bu təhsil ocağı başqa məktəblər üçün də metodik mərkəzə çevrilir.

### Xain qətl

Dövrünün yüksək vətəndaşlıq məsuliyyətinə malik görkəmli ziyalısı kimi Firidun bəy Köçərli ictimai-siyasi proseslərdə də fəal iştirak edir, zəkasının nuru, qələminin qüdrəti, şəxsiyyətinin nüfuzu ilə Azərbaycanın gələcəyinə töhfə verməyə çalışırdı. O, "Müsavat" partiyasının üzvü idi, partiyanın Qazax şöbəsinə rəhbərlik edirdi. Vətənin sabahı ilə bağlı köksündə nə qədər arzular vardı. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və bolşeviklərin ölkəni yağmalaması milli düşüncəli bir çox ziyalımız kimi, Firidun bəy Köçərlinin də arzularını yarıda qırdı. Bolşeviklər yeganə "günahı" xalqı maarifləndirmək, yeni nəsillərə savad öyrətmək, sağlam düşüncə mühiti formalaşdırmaqdan ibarət olan 57 yaşlı ziyalının ömrünə qıydılar. 1920-ci ilin mayında Qazax kommunistləri Köçərlini və digər "Müsavat" funksionerlərini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə", general-qubernator Ə.Xoyskinin etibarlı şəxsləri olmaqda ittiham edərək həbsə aldılar.

20-ci diviziyanın 7-ci xüsusi bölməsinin xüsusi şöbəsində şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan onun güllələnməsi haqqında qərar çıxarıldı. 7-ci xüsusi bölmənin rəisi Liberman və fövqəladə komissar Həmid Sultanov tərəfindən təsdiqlənmiş hökm dərhal da yerinə yetirildi.

Bəzi mənbələrə görə, Firidun bəy Köçərlinin həbsindən xəbər tutan Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri, görkəmli ədib və ictimai-siyasi xadim Nəriman Nərimanov onun azadlığa buraxılması tələbi ilə dərhal Gəncəyə teleqram göndərib. Teleqram onu qətlə yetirəcək adamın əlinə çatan kimi həmin şəxs Firidun bəyi güllələyib və yanındakı ikinci adama "biz onu güllələyəndən sonra Nərimanovun göstərişindən xəbərdar olduq" deyir.

Ölümündən sonra - 1925-ci ildə həyat yoldaşı Badisəba xanımın böyük zəhməti sayəsində "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabının I hissəsi, 1926-cı ildə isə II hissəsi çapdan çıxır.

Firidun bəy Köçərli M.F.Axundzadədən sonra Azərbaycan tənqidi və ədəbiyyatşünaslığında yaranmış boşluğu dolduran və ədəbi-nəzəri fikrin irəliləməsinə təkan verən böyük şəxsiyyətdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Xəbərlər

## Bu il Şuşada iki beynəlxalq elmi konfrans keçiriləcək




**Şuşada "Əhməd bəy Ağaoğlu və Türk dünyası", "Şuşa Türk dünyası tarixində" adlı beynəlxalq konfranslar keçiriləcək.**

Bu barədə qərar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planında yer alıb.

Həmçinin qərarda Şuşada "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminarın keçirilməsi və "Xarıbülbül əfsanəsi" sənədli filminin təqdimatı da nəzərdə tutulur.

İl ərzində təşkil ediləcək bu konfranslarla bağlı işlərin icrası Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonundakı xüsusi nümayəndəliyinə tapşırılıb.

## 6 mindən çox abidə dövlət qeydiyyatına götürülüb

**Azərbaycanda 6308 tarix-mədəniyyət abidəsi dövlət qeydiyyatına götürülüb.**



Bu barədə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildirilib.

Qeyd edilib ki, abidələr dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri kimi təsnif edilib.

Dünya əhəmiyyətli abidələr 82, ölkə əhəmiyyətli abidələr 2059, yerli əhəmiyyətli abidələr 4167-dir.

# Azərbaycanda da zəlzələ gözlənilirmi?

## Mütəxəssislər ölkəmizin bu təhlükədən hələ ki uzaq olduğunu deyirlər

**Biz təbii fəlakətlərin daim hökm sürdüyü bir planetdə yaşayırıq. Bu fəlakətlər tarixboyu insan yaşamı üçün təhdid olsa da, onlara qarşı hələ də gücsüzük.**



Yer qabığını meydana gətirən lövhələr bir-birinin üzərində yerləşir. Bu plitələrin təbii proseslərin təsiri ilə aralanması və sıxılması zəlzələləri meydana gətirən əsas səbəblərdəndir. Zəlzələ yer qabığı daxilində qırılmalara görə yaranan titrəyişlərin dalğalar halında yayılaraq Yer üzünə əks olunması prosesidir. Bu dalğalar yayılarkən keçdiyi və çatdığı hər yeri təsiri altına salaraq, dağıntılara səbəb olur. Başqa sözlə, əslində, bu, hərəkətsiz qəbul etdiyimiz, üzərinə inamla basıb, evlərimizi tikdiyimiz torpağın hərəkət edərək üzərində olan hər şeyə zərər verməsi hadisəsidir.

Zəlzələ zamanı evlər və binalar dağılır, insan tələfatları və yaralanmalar olur. Onlar bəzən dağıdıcı gücə malik olsa da, faiz nisbətinə görə bir çoxu insan həyatı üçün təhlükəsiz olur. Buna baxmayaraq, ekspertlər zəlzələyə meyilli ölkələrdə yaşamaq riskinin digər ölkələrlə müqayisədə beş dəfə yüksək olduğunu qeyd edirlər. Hər il minlərlə insan təbii fəlakətlərin qurbanı olur.

### Ötən il ölkəmizdə 12762 yeraltı təkan qeydə alınıb

Azərbaycanda yerli, regional və uzaq zəlzələlər, eləcə də yeraltı partlayışlar Respublika Seysmoloji Xidmət Mərkəzinin seysmik stansiyaları tərəfindən qeydə alınır. Mərkəzin məlumatına görə, ötən il ümumi olaraq 12762 yeraltı təkan qeydə alınıb. Onlardan 2949-u yerli, 4645-i regional, 3776-sı uzaq zəlzələlərdir. Bundan başqa, 1391 yeraltı partlayış da müşahidə olunub. Ölkədə baş verən zəlzələlərdən 17-si hiss olunan olub. Maqnitudası 3-dən yuxarı olan zəlzələ sayı isə 56-dır.

Son dövrlərdə Azərbaycanda ən çox zəlzələ 2019-cu ildə müşahidə edilib. Həmin il ölkədə 5442 zəlzələ hadisəsi qeydə alınıb. Burada söhbət 3 baldan yuxarı olan təkanlardan gedir. Daha aşağı bal gücündə olan təkanlar hesabata daxil edilmir. Hesabat dövründə ən az seysmik təkan isə 2010-cu ildə müşahidə edilib.

RSXM-in məlumatına görə, beynəlxalq qrant layihəsi çərçivəsində ölkəmizə gətirilmiş 22 ədəd yeni seysmik stansiyaların quraşdırılması işləri başa çatdırılıb. Həmin stansiyalardan 12 ədədi dünyada ilk dəfə Abşeron yarımadasında olan palçıq vulkanları ətrafında quraşdırılıb ki, bu stansiyalar vasitəsilə palçıq vulkanlarının dinamikasını və orada gedən prosesləri də izləmək mümkündür.

### Azərbaycanda güclü zəlzələ ehtimalı yoxdur

Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli deyib ki, fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ Azərbaycandakı zəlzələ ocaqlarını oyada bilməz: "Qardaş ölkədəki zəlzələ sərhəddən təxminən 700-800 kilometr aralıda baş verib. Bu uzaqlıqda baş verən zəlzələnin ölkəmizə təsiri yoxdur. Yaxın günlərdə Azərbaycanda güclü təkanların olması gözlənilmir".

Qısamüddətli zəlzələnin proqnozunu verməyin qeyri-mümkünlüyünü söyləyən Q.Yetirmişli bildirib ki, RSXM-in praktikasında iki ortamüddətli zəlzələ proqnozu var: "Birinci zəlzələ ilə bağlı proqnoz 2000-ci ilin noyabrın 25-də olub. Həmin xəbərdarlıqda Xəzərdə seysmoloji aktivlik müşahidə olunduğu qeyd edilmişdi. Zəlzələnin proqnozunu vermək nə qədər çətindirsə, onu əhaliyə çatdırmaq da bir o qədər çətindir. İkinci zəlzələnin proqnozunu isə 2012-ci ildə mən vermişəm. Balakən zonasında aktivləşmə olmuşdu və mayda zəlzələ oldu".

Ölkəmizdə hər gün yeraltı təkanların qeydə alındığını söyləyən mütəxəssis bildirib ki, onların çoxu hiss olunmur: "Bakıda zəlzələ ilə bağlı təhlükə, əsasən, Xəzər dənizindəndir. Ən dərin zəlzələ ocaqları burada yerləşir. Xəzərdə zəlzələlər 50-60, hətta 70 km dərinliyində olur".

### Tikinti zamanı seysmoloji tədqiqatlar aparılmalıdır

Q.Yetirmişli qeyd edib ki, binalar tikiləndə mütləq şəkildə seysmoloji tədqiqatlar aparılmalıdır: "Riski minimuma endirmək üçün hər bir binanın quruluşu araşdırılmalıdır. 2019-cu ilə qədər aparılan inşaat işlərində bizə müraciət olunurdu, lakin indi müraciət yoxdur. Müraciətlər olanda əməkdaşlarımız tikiləcək binaların yerinin seysmoloji balını müəyyən edib, rəy verirdilər".

Direktorun sözlərinə görə, mikrorayonlaşdırma xəritəsinə uyğun binalar tikmək olmaz. Seysmoaktiv ərazilərdə bu xəritələrlə işləmək olmaz. Prosesdə xəritə yox, seysmoaktiv vəziyyət dəyərləndirilməlidir.

"8 ballıq zəlzələ zonası ilə müqayisədə 9 ballıq ərazidə tikinti apararkən, hesablanmış normativlərə görə 40 faiz əlavə vəsait qoyulmalıdır. Bu zaman dəmir-beton kalonların ölçüləri, armaturlar, N kəsiyinin ölçüləri nəzərə alınmalıdır. Tikinti şirkətləri əlavə vəsait xərcləmək və bunun vergisini vermək istəmirlər", - deyən baş direktor, həmçinin binaların bir-birinə yaxın tikilməsinin təbii fəlakətlər zamanı yarada biləcəyi çətinliklərə də toxunub. Onun sözlərinə görə, birmərtəbəli binanı söküb, yerində çoxmərtəbəli bina tikirlər, amma yanğınsöndürənlərin, xilasedicilərin gəlməsi üçün yol saxlamırlar".

### Zəlzələ zamanı nə etməli?

Təbii fəlakətlərin qarşısını almaq çox çətin, hətta bir çox halda mümkünsüz olur. Bu halda hər kəs bununla bağlı məlumatlandırılmalıdır. Mütəxəssislər təbii fəlakətlər zamanı mümkün olduğu qədər sakit davranmağı və düşünərək hərəkət etməyi tövsiyə edirlər. Təcrübələr göstərir ki, əsas təhlükə zəlzələnin özü yox, onun fəsadlarıdır: torpaq süxurlarının ani dəyişikliyi, bina və tikililərin dağılması, mebel və digər ev avadanlıqlarının aşması, şüşə qırıntıları, sel və qaz sızıntısı və s.

Zəlzələ zamanı mühüm məqamlardan biri özümüzü itirmədən nə edəcəyimizi bilmək, düzgün qərarlar qəbul etməkdir. Bu zaman mümkün olduğu təqdirdə binaları tərk etmək lazımdır. Həmçinin liftdən yox, pilləkənlərdən istifadə edilməlidir. Çölə çıxan kimi boş ərazilərə getmək, tikili və naqillərdən uzaqlaşmaq məsləhətdir.

Yaşayış yerini tərk edə bilməyənlər daxili divarın yanı, otaq künclərində durmalı, stol və ya yataq altı kimi təhlükəsiz yerlərdə yumaq formasında uzanaraq əlləri ilə başlarını örtməlidirlər. Qaz sızıntısı ehtimalını nəzərə alaraq kibrit yandırılmamalıdır. Təhlükəli miqdarda toz udmamaq üçün yalnız əlacsız qaldıqda qışqırmalı, ağız nahiyəsi əl dəsmalı və ya geyimlə bağlanmalıdır. Xilasedicilərin zərərçəkənlərin olduğu yeri müəyyən etmələri üçün boru və ya divara nəsə vurub işarə vermək vacibdir.

Zəlzələ zamanı nəqliyyatda olan təqdirdə təkanlar qurtarmayınca onu tərk etmək məsləhət görülmür. Nəqliyyat vasitələri binaların, ağacların, estakadaların və elektrik naqillərinin yanında saxlanılmamalı, zədəli olan yollardan, körpülərdən və maili enişlərdən istifadə edilməməlidir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*



AZƏRBAYCAN
"Azərbaycanlı olduğuma görə çox qürurluyam"
Həmrəyliyin təcəssümü
Azərbaycan Türkiyəyə dəstək üçün tək ürək olub
Yeni təsnifata bütün növ pensiyalar indeksləşdiriləcək 14,7 faiz artırıldı
Milli Məclis ölkə Prezidentinin təşəbbüsünə qoşulub
Laçın-Xankəndi yolunda ekoaksiya 62 gündür davam edir
Faciəni yaşayanlar onu daha dərindən anlayırlar

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# ABŞ Rusiya ilə START üzrə danışıqların bərpasına hazırdır

**Vaşinqton Moskva ilə START müqaviləsi (Strateji Hücum Silahlarının Azaldılması və Məhdudlaşdırılması Tədbirləri haqqında Müqavilə/START-Strategic Arms Reduction Treaty) üzrə danışıqların bərpasında və strateji obyektlərdə yoxlamaların davam etdirilməsində son dərəcə maraqlıdır.**



Bu barədə brifinq zamanı jurnalistlərə məlumat verən ABŞ dövlət katibinin silahlara nəzarət üzrə müavini Bonni Cenkins deyib: "Məqsədimiz Rusiyaya aydın şəkildə anlatmaqdır ki, onlar istədikləri anda biz görüşməyə hazırıq. Təəssüf ki, onlar bunu Ukraynada baş verənlərlə əlaqələndirirlər".

Moskva isə öz növbəsində dəfələrlə bəyan edib ki, START üzrə konstruktiv dialoqu bərpa etməyə hazırdır, lakin bunun üçün "heç bir minnət olmamalıdır". Həmçinin qeyd olunub ki, ABŞ-dən danışıqların bərpası ilə bağlı siqnallar var.

Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov ABŞ-lə münasibətlərdə ən problemli məqamlar barədə danışıb. Onun dediyinə görə, Rusiya START-dan imtina etmir və müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirir, ABŞ isə öz öhdəliklərinə kifayət qədər sərbəst yanaşır: "Biz əlimizi uzadıb onların arxasınca getmirik, heç bir lütf istəmirik".

Diplomat həmçinin əlavə edib ki, amerikalılar START məsələsi ilə bağlı Rusiyaya qarşı açıq iddialar irəli sürüb və Moskvanın guya müqavilə şərtlərini pozduğunu bildirib. S.Ryabkov ABŞ-nin Moskvadakı yeni səfiri Linn Treysi ilə müqavilə ətrafında vəziyyəti müzakirə edib. O bildirib ki, Rusiya ABŞ-lə Strateji Hücum Silahlarının Azaldılması və Məhdudlaşdırılması Tədbirləri haqqında Müqavilə və təhlükəsizlik məsələlərinə dair işləməyə hazırdır: "Əgər amerikalılar buna hazır olarlarsa, biz dialoqu bərpa etməyə hazırıq, əlbəttə, bacararıq və bunu istəyirik. Hər şey Vaşinqtondan asılıdır".

O, Vaşinqtonun Rusiya Federasiyası ilə təhlükəsizliklə bağlı danışıqlarda gündəmi dəyişmək cəhdlərini strateji səhv adlandırıb. Nazir müavini əlavə edib ki, Rusiya ilə ABŞ arasında təmaslar kəsilmir və davam edir. Eyni zamanda o bildirib ki, Moskva birtərəfli güzəştlərə getməyəcək: "Ötən illər ərzində biz daim vurğulamışıq ki, Rusiya tərəfdən heç bir birtərəfli güzəşt olmayacaq".

Xatırladaq ki, 2021-ci ilin yanvarında Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Co Bayden START müqaviləsini əlavə şərtlər olmadan daha beş il, 2026-cı il fevralın 5-nə qədər uzatmaq barədə razılığa gəliblər. Lakin Ukraynada başlayan müharibə müqavilənin icrasında problemlər yaradıb.

Bu günlərdə Rusiya Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov vurğulayıb ki, Rusiya START-ın qüvvədə qalmasının davam etdirilməsini çox vacib hesab edir. Eyni zamanda o qeyd edib ki, ABŞ faktiki olaraq silahlara nəzarət və təhlükəsizlik sahəsində qanunvericilik bazasını dağıdıb, Rusiya Federasiyası ilə düşmənçilik şəraiti yaradıb.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# 11 Fevral Ümumdünya Xəstələr Günüdür

**Ümumdünya Xəstələr Günü 1992-ci ildə Roma Papası II İohann Pavelin təşəbbüsü ilə təsis edilib. Papaya 1991-ci ildə Parkinson xəstəliyi diaqnozu qoyulub. O, diaqnoz qoyulandan sonra Xəstələr Gününün qeyd edilməsi təşəbbüsünü irəli sürüb.**




AZƏRTAC Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) rəsmi feysbuk səhifəsinə istinadla bildirir ki, Ümumdünya Xəstələr Gününün qeyd olunmasında əsas məqsəd xəstələrin ağrı və iztirablarını yüngülləşdirmək və ictimaiyyətin diqqətini onlara göstərilən xidmətin səviyyəsini yüksəltməyə yönəltməkdir. Hər il Ümumdünya Xəstələr Günü çərçivəsində maarifləndirici aksiyalar təşkil edilir, xəstəliklərdən əziyyət çəkən insanlara dəstək məqsədilə müxtəlif tədbirlər keçirilir, xəstəxanalar ziyarət olunur, sağlamlığın qorunması və sağlam həyat tərzinin təbliği istiqamətində profilaktik addımlar atılır.

# Ermənistanda etirazlara vəkillər də qoşulub

*Əvvəli 1-ci səh.*

Ermənistanda korrupsiyanın və rüşvətxorluğun miqyasının durmadan artması fonunda əhalinin hakimiyyətdən narazılığı daha da güclənir. Hadisələrin bu səpkidə inkişafı isə müxalif qüvvələrin fəallığının artmasına və hakimiyyət əleyhinə apardığı təbliğatın miqyasının əhəmiyyətli dərəcədə genişlənməsinə səbəb olub.

Korrupsiya da daxil olmaqla, ölkənin saysız-hesabsız problemləri Ermənistan əhalisinin haqlı narazılığının daha da artmasına, etiraz aksiyalarının geniş vüsət almasına səbəb olmaqdadır. Bu aksiyalar həm də ölkədə vəziyyətin gərgin olmasından xəbər verir. Özü də bu aksiyalar ən müxtəlif ədalətsizliyə qarşı yönəlib. Məsələn, elə bu günlərdə Ermənistanda vəkillər etiraz aksiyası keçiriblər. Erməni vəkil Ara Zohrabyan deyib ki, Erebuni polis idarəsinin əməkdaşları onların iki həmkarını təhqir edərək döyüblər. Qeyd edib ki, iki azyaşlının polis tərəfindən döyülməsi ilə bağlı aparılan istintaq çərçivəsində qarşıdurma yaranıb. Qarşıdurma zamanı polis peşə fəaliyyətini həyata keçirən vəkillərdən birinə psixoloji təzyiqlər göstərməyə çalışıb. Polislər vəkili ələ salıblar, sonra dəhlizə çıxararaq ona hücum ediblər. Dəhlizdə təhqir olunaraq döyülən vəkilin səsini eşidən digər həmkarı kabinetdən çıxıb. Nəticədə o da döyülüb və təhqir olunub.

Polis əməkdaşları hadisə yerinə gələn Vəkillər Palatasının sədri qarşısında özlərinə haqq qazandırmağa çalışıblar. Onlar iddia ediblər ki, vəkil özü polislərə təhqiredici sözlər deyib. Ona görə də polislər onu cəzalandırmaq hüquqlarını özlərində saxlayıblar. O, polis rəisinə və daxili işlər nazirinə müraciət edərək təcili tədbir görülməsini, məlum polis əməkdaşlarının əməllərinə konkret hüquqi qiymət verilməsini, heç olmasa onların səlahiyyətlərinin əllərindən alınaraq fəaliyyətinin dayandırılmasını istəyib. "Onlar polis kimi qala bilməzlər. Elə bir vəziyyət yaranıb ki, vətəndaşı qorumaq üçün illərlə təhsil alaraq təlim və təcrübələr keçən vəkilin özünün müdafiəyə ehtiyacı yaranıb. Hətta onlar belə polisin hədəfinə çevrilə bilərlər", - Zohrabyan ölkədəki hüquqi dərəbəylikdən gileylənib.

İrəvanın ən böyük problemlərindən biri də xarici dövlətlərdən alınan borcun vaxtında geri qaytarılmamasıdır. Son bir ildə ölkənin xarici borcu 300 milyon dollardan çox artaraq 10 milyard dolları ötüb. İşsizliyin hökm sürdüyü, əhalisinin əksəriyyətinin yoxsulluğun son həddində yaşadığı Ermənistan xarici borclarını ödəmək iqtidarında deyil. Bu borcların gələcəkdə daha da artacağı gözlənilir.

Bu acınacaqlı vəziyyət qarşıdakı dövr ərzində Ermənistanda sosial-iqtisadi durumun daha da gərginləşəcəyindən xəbər verir. Hakimiyyət isə getdikcə dərinləşən problemlərə son qoymaq iqtidarında deyil. Elə bu səbəbdən qarşıdakı müddət ərzində Ermənistanda vəziyyətin daha da pisləşəcəyi gözlənilir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# İrandan Azərbaycana 10 kiloqramdan çox narkotik vasitə keçirməyə cəhd edən şəxs saxlanılıb



Fevralın 10-da saat 12:05-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin İmişli rayonunun Qaragüvəndikli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində, sərhəd naryadı tərəfindən bir nəfər naməlum şəxsin İrandan Azərbaycan istiqamətində dövlət sərhədini pozması müşahidə edilib.

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində 1995-ci il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşı Xəlilov Şöhrət Oqtay oğlu dövlət sərhədini pozaraq 10 kiloqram 280 qram narkotik vasitə "marixuana", 8 ədəd "metadon M-40" və 30 ədəd "namadol" həblərini ölkə ərazisinə keçirməyə cəhd edərkən sərhədçilər tərəfindən saxlanılıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5048
Sifariş 343

Qiyməti 40 qəpik